Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

27-29 İYUL 2019-cu il
№ 131 (4029)
Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

# AZƏRBAYCAN DOLLAR VƏ ABŞ İSTİQRAZLARI İLƏ BAĞLI YENİ SİYASƏTƏ START VERİR

■ səh. 6 ■

Qarabağ münaqişəsi Paşinyan iqtidarının da sonunu sürətlə hazırlayır ■ səh. 9 ■

Ermənistan torpaqlarımızda şimal və mərkəz istiqamətləri adlanan yollardan sonra üçüncü trasın çəkilişinə istiqamətlənir - cənub istiqaməti... ■ səh. 2 ■

Ermənilərin dağıtdığı tarix-mədəniyyət abidələrimiz beynəlxalq hüquqi araşdırma müstəvisində... ■ səh. 3 ■

Polisə qarşı daha bir ideoloji təxribatı bu dəfə Baş Polis İdarəsi ifşa etdi ■ səh. 2 ■

Şah İsmayıl haqda yarımçıq kino - 1 milyon vəsaitin havaya sovrulduğu deyilir ■ səh. 13 ■

Şəhər taksi sürücüləri işləyən kondisionerə görə müştərilərdən 50 qəpik, hətta 1 manat tələb edir ■ səh. 12 ■

Restoran-kafelərin 10 faiz xidmət haqqı oyunu - vəsait vergidən yayındırılır, xidmətçilər bir qəpik də almır... ■ səh. 10 ■

Binə və Sovxoz adlı böyük yaşayış massivlərinin minlərlə sakini susuzluqdan məhv edilir... ■ səh. 12 ■



■ səh. 8 ■

## Paşinyan ABŞ-dan aldığı direktivlər əsasında rus ordusunu Ermənistandan çıxarır









Ermənistanın Rusiya ilə əlaqənin yeganə Yuxarı Lars keçidinə şübhəli alternativlər axtarışı... ■ səh. 5 ■

Sabiq MTN-in Mahmudovçu generalları cinayət ittihamları ilə tam razılaşdı - Sübahir Qurbanov, Füzuli Əliyev... ■ səh. 4 ■

Həsən bəy Zərdabinin qohumu, təqaüdçü alim də «Unibank»ın «dollar kredit» əməllərinin qurbanlarından biri oldu ■ səh. 7 ■

■ səh. 5 ■ Britaniyanın türk əsilli yeni Baş naziri ölkəsini Türk dünyası ilə dost da edə bilər, düşmən də...



■ səh. 4 ■ Qardaş Türkiyə ilə viza rejiminin ləğvi və iqtisadi-biznes mühitinə mümkün təsirlər...



■ səh. 7 ■ 41 min müəllimdən cəmi 3 nəfər maksimum bal - müəllimlərin bilik səviyyəsi ilə bağlı nazirliyin layihələrinin gərəkliyi təsdiqlənir...



■ səh. 14 ■ 30 "Qurban çadırına" 800 min manatdan çox vəsait necə xərclənə bilər...



■ səh. 10 ■ İctimaiyyət üçün pulsuz çimərliklərin yaradılmasına tələbat gündən-günə artır



## MiQ-29 qırıcısının qəzasını əks etdirən saxta videogörüntü yayılıb

**Təyyarənin hərbi aerodromdan qalxdığı vaxt gecə saatları olub, təlim-məşq uçuşları da gecə vaxtı keçirilib. Burada isə açıq-aydın görünür ki, hava işıqlıdır, gündüzdür.**



"Trend"in məlumatına görə, bu barədə sosial şəbəkələrdə yayılan, guya MiQ-29 qırıcısının qəza anını əks etdirən videogörüntü ilə bağlı Müdafiə Nazirliyinin açıqlamasında deyilir.

Qeyd olunub ki, yayılan videogörüntünün heç bir əsası yoxdur və yalandır:

"Plana uyğun keçirilən təlim-məşq uçuşları axşam vaxtı həyata keçirilib. Bu videoda göstərilən gün rejimi isə həmin vaxtla uyğun gəlmir, məhz buna görə də bu görüntülər saxtadır. İctimaiyyəti həmin videonu yaymamağa, o cümlədən inanmamağa çağırırıq".

## Polisə qarşı daha bir ideoloji təxribatı bu dəfə Baş Polis İdarəsi ifşa etdi



**Sosial şəbəkələrdə və bəzi xəbər saytlarında "polis işçisinin şok səs yazısı yayıldı" sərlövhəli yazıda iddia olunan məlumatlar, videogörüntülər absurd xarakter daşıyır. Bununla bağlı Bakı şəhər Baş Polis İdarəsində müvafiq araşdırma aparılaraq, orada adı çəkilən şəxslərin kimliyi və fəaliyyəti öyrənilib.**

İdarədən "Trend"-ə verilən məlumata görə, müəyyən olunub ki, orada adı çəkilən, yaxud səs yazısı olduğu iddia olunan şəxs - bölgə rayonlarından birinin polis şöbəsində polis nəfəri olmuş Lətif Hacıyev 2013-cü ildə daxili işlər orqanlarından xaric olunub. Bu da polis orqanları ilə hər hansı bir dəqiqləşdirmə aparmadan reallığa uyğun olmayan, qərəzli məlumatların yayılmasına səbəb olub. BŞBPİ bəyan edir ki, qeyd olunanlardan xəbərsiz olan şəxslərin sosial media platformalarında polisin ünvanına söylədiyi fikirlər tamamilə həqiqətdən uzaqdır, faktlar dəlil-sübutlara əsaslanmır:"Deyilənləri nəzərə alaraq sosial şəbəkə istifadəçilərinə, mətbuat nümayəndələrinə tövsiyə edirik ki, polisin adı hallanan məlumatları hazırlayarkən dəqiqləşdirmə aparmadan, sensasiya naminə həqiqətə uyğun olmayan, ictimai rəyi çaşdırmaq məqsədi daşıyan məlumatları yaymasınlar".

# Prezident Azərbaycanda kadr ehtiyatı bankının yaradılmasına doğru böyük addım atdı

## "Yüksəliş" müsabiqəsi təsis edildi

**Prezident İlham Əliyev "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında sərəncam imzalayıb.**



Sərəncama əsasən, intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə "Yüksəliş" müsabiqəsi (bundan sonra - Müsabiqə) təsis edilir.

Müsabiqənin keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılır:

Təşkilat Komitəsinin sədri

Fərəh Əliyeva - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri

Təşkilat Komitəsinin üzvləri

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının vergilər naziri

Azad Rəhimov - Azərbaycan Respublikasının gənclər və idman naziri

Ceyhun Bayramov - Azərbaycan Respublikasının təhsil naziri

Sahil Babayev - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Anar Ələkbərov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Ülvi Quliyev - Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Məleykə Abbaszadə - Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri

Balakişi Qasımov - İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru.

Təşkilat Komitəsi müsabiqənin keçirilməsinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirməli, müsabiqə üzrə əlaqələndirmə işlərinin həyata keçirilməsi ilə əlaqədar işçi qrup yaratmalı və Azərbaycan Respublikası gənclər və idman nazirinin müavinini işçi qrupun rəhbəri təyin etməli, müsabiqənin keçirilməsi qaydalarını təsdiq etməli, işçi qrup Müsabiqənin keçirilməsini təmin edəcək qurumu müəyyən etməlidir.

Müsabiqə üzrə cari işlərin həyata keçirilməsi üçün səlahiyyətli orqan qismində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi müəyyən edilir.

Müsabiqə üzrə cari işlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1.000.000 (bir milyon) manat ayrılır.

Maliyyə Nazirliyi nəzərdə tutulan maliyyələşməni təmin etməlidir.

# Ermənistan torpaqlarımızda şimal və mərkəz istiqamətləri adlanan yollardan sonra üçüncü trasın çəkilişinə istiqamətlənir - cənub istiqaməti...

**Ermənistanın hakimiyyətinin yüksək vəzifəli nümayəndəsi tərəfindən işğal olunmuş ərazilərimiz boyunca "cənub istiqaməti" adlandırılan yeni yolun çəkilməsi barədə verilən açıqlama Ermənistanın əsl niyyətinin hərbi işğala əsaslanan mövcud status-kvonu möhkəmləndirmək, münaqişənin danışıqlar yolu ilə həllinə imkan verməmək və Azərbaycanın işğal olunmuş ərazilərini ilhaq etmək olduğunun növbəti nümunəsidir.**

Baki-xeber.com xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin yaydığı açıqlamada deyilir.

Nazirliyin açıqlamasında deyilir ki, Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən qeyri-qanuni fəaliyyətlər, o cümlədən infrastruktur dəyişikliyinin aparılması Ermənistanın münaqişənin sülh yolu ilə həll edilməsi barədə iddialarının riyakarlıqdan və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmadığını göstərir: "Şimal istiqaməti adlandırılan və işğal olunmuş Kəlbəcər rayonundan çəkilmiş "Vardenis-Ağdərə" avtomobil yolu, eləcə də mərkəzi "Gorus-Laçın" avtomobil yolu təcrübəsi göstərir ki, Qubadlı və Cəbrayıl rayonlarından çəkilməsi nəzərdə tutulan yeni yol işğal altında olan bu ərazilərin təbii və digər resurslarının daha aqressiv formada talan edilməsinə xidmət edəcək.

Ümumiyyətlə, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində infrastruktur dəyişikliyi ilə bərabər, maddi-mədəni irsin məhv edilməsi, demoqrafik tərkibin dəyişdirilməsi, mineral resursların talan edilməsi və digər bu kimi qeyri-qanuni fəaliyyətlər həyata keçirir.

ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində aparılmış fakt-araşdırıcı və qiymətləndirmə missiyalarının nəticəsi olaraq hazırlanmış hesabatlarda qeyri-qanuni fəaliyyətlərin sülh prosesinə ciddi təhlükə yaratdığı təsbit olunur.

2018-ci ildə hazırlanmış "Azərbaycanın Ermənistanın işğal altında olan ərazilərində qeyri-qanuni fəaliyyətlər: Peyk məlumatları əsasında sübutlar" adlı hesabatda Ermənistanın qeyri-qanuni əməllərinin miqyası tam aydın şəkildə özünü göstərir.



Beynəlxalq humanitar hüquq, xüsusilə 1949-cu il tarixli Cenevrə Konvensiyası və Əlavə Protokollarına əsasən işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyətlərin aparılması qadağandır.

ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in Fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi işğal olunmuş ərazilərimizdə aparılan və danışıqlar prosesinə ciddi zərbə vuran qeyri-qanuni fəaliyyətləri ciddi şəkildə nəzərə almalıdırlar.

Münaqişənin həlli ilə bağlı münbit şəraitin yaradılmasına baxmayaraq, Ermənistanın atəşkəs rejiminin arxasında gizlənərək destruktiv şəkildə qeyri-qanuni fəaliyyətləri davam etdirməsi danışıqlar prosesinin pozulmasına yönəlmiş növbəti təxribatçı cəhddir. Buna görə bütün məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Beynəlxalq öhdəlikləri tapdalayaraq işğal etdiyi ərazilərdə qanunsuz əməlləri davam etdirən Ermənistanın təxribatçı hərəkətlərini kəskin qınayır və təcavüzkardan bölgəmizdə sülh, təhlükəsizlik və rifaha qarşı yönələn əməllərinə son verməyi və işğalçı qüvvələrini Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağı təkidlə tələb edirik.

İşğalçı ölkənin bu kimi təxribatçı əməllərinə müvafiq şəkildə cavab vermək hüququnu Azərbaycan özündə saxlayır.

**Aydın Quliyev və "Bakı-Xəbər" qəzetinin kollektivi əməkdaşımız Samirə Səfərovaya dayısı Fazil Muradxanovun vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduqlarını bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**Şahin Orucov Musa Sabir oğlu Hacıyevin vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

# Ermənilərin dağıtdığı tarix-mədəniyyət abidələrimiz beynəlxalq hüquqi araşdırma müstəvisində...

**Ermənilərin işğal altında saxladıqları ərazilərimizdə tarixi-dini, mədəniyyət abidələrinə qarşı həyata keçirdikləri vandalizm aktlarına hələ də beynəlxalq hüquq müstəvisində münasibət göstərilməyib. Abidələrimizə qarşı saxtalaşdırma, məhvetmə kimi dünya qanunlarına, beynəlxalq konvensiyalara zidd olan əməllər törədən ermənilərin bu hərəkətlərinə hüquqi müstəvidə cavab verilməlidir.**

*"Bu məsələ ilə bağlı vəsatət qaldırılması çox vacibdir və beynəlxalq məhkəmələr buna beynəlxalq hüquq müstəvisində qiymət verməlidirlər"*

***Əziz Qənbərov:** "Azərbaycan tərəfi ermənilərin abidələrimizə qarşı törətdikləri qanunsuz əməllərlə bağlı bütün beynəlxalq qurumlara məlumat verib"*

Doğrudur, Azərbaycan dövləti uzun illərdir müxtəlif beynəlxalq təşkilatlar qarşısında ermənilərin bu əməllərinin ifşa edilməsi istiqamətində işlər aparır, lakin hələ də ermənilərə qarşı hər hansı bir tədbir görülməyib.

Ekspertlər qeyd edirlər ki, hətta faşistlər belə işğal etdikləri ərazilərdə tarixi abidələri dağıtmayıblar, amma ermənilər dağıdırlar.

AMEA-nın Mərkəzi Elmi Kitabxanası (MEK) və Qafqaz Tarixi Mərkəzinin birgə təşkilatçılığı ilə UNESCO kafedrasının milli irsin öyrənilməsi üzrə "Günəşin axtarışında" beynəlxalq İşçi qrupunun Azərbaycan üzrə fəaliyyəti" mövzusunda keçirilən tədbirdə Azərbaycan torpaqlarında tarixi-dini abidələrə qarşı ermənilərin saxtakarlıq və cinayət əməllərinin təsbit olunması üçün beynəlxalq səviyyədə müvafiq strukturlar qarşısında vəsatət qaldırılması təklif olunub.

Rusiyalı tarixçi və siyasi analitik Oleq Kuznetsovun da qatıldığı və çıxış etdiyi tədbirdə bu məsələ önə çəkilib.

Tanınmış hüquqşünas Əziz Qənbərov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanın işğal altında olan ərazilərində ermənilərin bu və digər sahələrdə törətdiyi cinayətlər cavabsız qalmamalıdır. Ə.Qənbərovun sözlərinə görə, ermənilərin tarixi-dini, mədəniyyət abidələrinə qarşı həyata keçirdikləri saxtalaşdırma və vandalizm hərəkətlərinə beynəlxalq hüquq müstəvisində qiymət verilməlidir. "Bilirsiniz ki, Azərbaycan tərəfi ermənilərin abidələrimizə qarşı törətdikləri qanunsuz əməllərlə bağlı bütün beynəlxalq qurumlara məlumat verib. Bu məsələ bir sıra beynəlxalq tədbirlərdə səsləndirilib. Ancaq təəssüflər olsun ki, hələ də torpaqlarımız işğaldan azad edilməyib və ermənilər ərazilərimizdə abidələrimizə qarşı cinayətlər törədirlər. Azərbaycan ərazilərində tarixi-dini abidələrimizə qarşı ermənilərin saxtakarlıq və cinayət əməllərinin təsbit olunması üçün beynəlxalq səviyyədə



müvafiq strukturlar qarşısında vəsatət qaldırılması çox mühüm bir məsələdir. Dövlətimiz beynəlxalq aidiyyəti məhkəmələrə müraciət etməli və erməni vandalizminə hüquqi qiymət verilməsinə nail olmalıdır. Biz haqlı tərəfik və ümid edirəm ki, bu məsələ ilə bağlı vəsatət qaldırılması çox vacibdir və beynəlxalq məhkəmələr buna beynəlxalq hüquq müstəvisində qiymət verməlidirlər. Müxtəlif beynəlxalq konvensiyalarda, eləcə də BMT-nin, onun təsisatlarından biri olan UNESCO-nun müvafiq sənədlərində də işğal olunmuş ərazilərdə abidələrə qarşı hər hansı bir cinayətin törədilməsi qadağası əks olunub. Lakin ermənilər heç bir beynəlxalq hüquq normalarına əhəmiyyət vermədən Azərbaycana məxsus ərazidəki abidələrimizə qarşı vandalizm aktları törədiblər".

Tarixi torpaqlarımızda ermənilərin törətdikləri cinayətlərin beynəlxalq hüquq müstəvisində qiymətləndirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini deyən Ə.Qənbərov bildirdi ki, artıq Qarabağa Qayıdış adlı ictimai birlik yaradıb və birliyin sənədləri təsdiq olunmaq üçün Ədliyyə Nazirliyinə təqdim edilib.

"Fikrim var ki, ermənilərin bu hərəkətləri ilə bağlı təşkilat adından beynəlxalq məhkəməyə müraciət edək. Azərbaycanın ermənilərin işğal altındakı ərazilərimizdə abidələrimizə qarşı həyata keçirdikləri saxtalaşdırma və vandalizm aktlarına beynəlxalq hüquq müstəvisində qiymət verilməsi üçün beynəlxalq məhkəmələrə müraciət etməyə əsası çoxdur. Dövlətimizin əlində kifayət qədər məhkəmə predmeti olan sənəd, fakt var ki, onlara əsasən beynəlxalq məhkəmə erməniləri cəzalandıra bilər" - deyə Ə.Qənbərov bildirdi.

***İradə SARIYEVA***

# Belarus FHN ilə tələbə mübadiləsi proqramında Naxçıvan FHN-in adı heç bir aidiyyəti olmadan hallandırıldı

**Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti Belarus FHN-lə tələbə mübadiləsi proqramında Naxçıvan FHN-in adının əsassız olaraq hallandırılması ilə bağlı xüsusi məlumat yayıb. Məlumat mətnində deyilir:**



*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti xüsusi məlumat yaydı*

"Son günlər bəzi informasiya saytlarında Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyinin Mühəndislik-Komanda İnstitutuna təhsil almağa göndərilən kursantlara dövlət tərəfindən ayrılmış təqaüdün Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən tam ödənilməməsi ilə bağlı əsassız və həqiqəti əks etdirməyən informasiyalar yayılır.

Məlumat üçün bildiririk ki, Belarusun Fövqəladə Hallar Nazirliyinin Mühəndislik-Komanda İnstitutunda təhsil alan kursantlar Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən seçilmir və onlara təqaüdü nazirlik ödəmir. Bütün bu məsələlər 2006-cı il oktyabrın 17-də Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə Belarusun Fövqəladə Hallar Nazirliyi arasında imzalanmış əməkdaşlıq haqqında sazişlə tənzimlənir. Həmin sazişə əsasən, Belarusun Fövqəladə Hallar Nazirliyinin Mühəndislik-Komanda İnstitutuna təhsil almağa göndərilən kursantlar Dövlət İmtahan Mərkəzinin I qrup üzrə keçirdiyi qəbul imtahanlarının nəticələrinə əsasən müəyyənləşdirilir. Belə ki, imtahanlarda müvafiq keçid balını toplayan abituriyentlər arasında seçim aparılır. Nəticədə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına daha yüksək balla qəbul olan gənclər Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyinin Mühəndislik-Komanda İnstitutunda təhsil almağa göndərilir. Təhsil aldıqları dövrdə həmin gənclərə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən aylıq təqaüd ödənilir

**Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyinin Mühəndislik-Komanda İnstitutunu bitirən və hazırda Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində xidmət edən zabitlərin təsdiq etdikləri kimi, onlar təhsil aldıqları dövrdə aylıq təqaüdlə tam təmin olunublar".**

**Məlum olduğu kimi, Ali Məhkəmədə ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov, həmin qurumun digər vəzifəli şəxsləri - Füzuli Əliyev, Natiq Alıyev və iş üzrə zərərçəkmiş Əliyev İlqar Nəriman oğlunun kassasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib.**

# Sabiq MTN-in Mahmudovçu generalları cinayət ittihamları ilə tam razılaşdı - Sübahir Qurbanov, Füzuli Əliyev...



Hakim Fərhad Əliyevin sədrliyi ilə keçirilən prosesdə adıçəkilən şəxslərin kassasiya şikayətini geri götürdükləri elan edilib. İş üzrə zərərçəkmiş şəxs İ.Əliyevin nümayəndəsi şikayətini geri götürmədiyi üçün proses avqustun 1-də davam edəcək.

Qeyd edək ki, Bakı Hərbi Məhkəməsinin hökmü ilə general-mayor Sübahir Qurbanov 14 il, Füzuli Əliyev 14 il, Natiq Alıyev 10 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər.

Bu ilin fevralında Bakı Apelyasiya Məhkəməsində MTN-in Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov, həmin qurumun digər vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev və Elşad Əzizovun barəsində olan hökmdən verilən apelyasiya şikayəti üzrə məhkəmə iclası qərar çıxarmışdı. Qərara əsasən, təqsirləndirilən şəxslərin apelyasiya şikayəti təmin edilməyib, birinci instansiya məhkəməsinin çıxardığı hökm dəyişdirilmədən qüvvədə saxlanıb.

## *Vüqar Cəfərov: "Bu o anlama gəlir ki, sözügedən şəxslər onlara qarşı irəli sürülən ittihamları qəbul edirlər"*

Onu da qeyd edək ki, bundan əvvəl Ali Məhkəmədə hakim İnqilab Nəsirovun sədrliyi ilə baş tutan prosesdə Akif Çovdarov və digər şikayət edən şəxslər şikayətlərini geri götürmələri barədə ərizə veriblər və bu ərizə təmin olunub. Bu səbəbdən kassasiya şikayətləri baxılmamış saxlanıb. Sabiq MTN-çilərin şikayətlərini geri götürmələri o anlama gəlir ki, onlar irəli sürülən cinayət ittihamları ilə razıdırlar. Yəni bunu qəbul edirlər.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

*"Sözügedən keçmiş MTN-çilər 2 instansiya məhkəməsini keçiblər"*

Məsələyə münasibət bildirən hüquqşünas Vüqar Cəfərovun sözlərinə görə, bu o anlama gəlir ki, sözügedən şəxslər onlara qarşı irəli sürülən ittihamları qəbul edirlər: "Məsələ ondadır ki, Azərbaycanda müəyyən iyerarxiyalı məhkəmə sistemi mövcuddur. Yəni təqsirləndirilən şəxslər yalnız bir instansiya məhkəməsinin qərarı ilə məhkum olunmurlar. Təbii ki, kimsə məhkum olunandan sonra birinci instansiya məhkəməsini keçir. Ondan sonra apelyasiya, ən nəhayət, Ali Məhkəmənin kassasiya instansiyası var. Yəni iş Ali Məhkəmənin kassasiya instansiyasını keçdikdən sonra hökm qanuni qüvvəyə minmiş sayılır. Yəni fərdə, təqsirləndirilən şəxsə Azərbaycan qanunvericiliyi imkan verir ki, üçpilləli məhkəmə sistemindən istifadə etsin. Bu minvalla öz hüquqlarını qorusun. Deməyim odur ki, birinci instansiya məhkəmə hökmü ilə razılaşmadıqda, digər məhkəmə instansiyalarından istifadə edir. Buna pilləvi məhkəmə ardıcıllığı deyilir. Sözügedən keçmiş MTN-çilər, göründüyü kimi, 2 instansiya məhkəməsini keçiblər.

Ancaq üçüncü instansiya məhkəməsi ilə bağlı şikayətdən imtina ediblər. Burada heç də belə bir nəticə əldə etmək olmaz ki, sözügedən şəxslər şikayəti geri götürüb harasa vermək istəyirlər. Bu belə deyil. Çünki adıçəkilən şəxslər həbsdədirlər. Onlar üçün daha optimal olar ki, indiki halda şikayət versinlər və hökmü yüngülləşdirsinlər. Çünki onlar müəyyən ağır cəzalara məhkum olunublar. Bu ehtimalı görmürlərsə, deməli, onlar ittihamla razılaşıblar ".

***Vidadi ORDAHALLI***

---

**Məlum olduğu kimi, iyulun 25-də Azərbaycan Türkiyə vətəndaşları üçün viza rejiminin ləğvinə qərar verib. Senytabrın 1-dən etibarən Türkiyə vətəndaşları Azərbaycana vizasız gələ biləcəklər. Ekspertlər hesab edirlər ki, qardaş ölkə olan Türkiyə vətəndaşlarının ölkəmizə sərbəst gəlməsi iqtisadiyyata müsbət təsir edəcək.**

# Qardaş Türkiyə ilə viza rejiminin ləğvi və iqtisadi-biznes mühitinə mümkün təsirlər...



## *Tahir Mirkişili: "Viza rejiminin ləğvi Azərbaycana səfər edən Türkiyə vətəndaşlarının sayının artmasına müsbət təsir edəcək"*

Millət vəkili Tahir Mirkişili qeyd etdi ki, 2019-cu ilin 6 ayı ərzində iki qardaş ölkə arasında ticarət dövriyyəsi 35 faiz artıb. Həmçinin, Azərbaycanın Türkiyəyə ixracında 2 dəfəyə yaxın artım qeydə alınıb: "Həm xarici ticarət dövriyyəsində, həm də Azərbaycanın ixracında Türkiyə 2-ci ölkədir. Digər tərəfdən, 2020-ci ildə Azərbaycanın Türkiyəyə yatırdığı xarici investisiyanın həcmi 20 milyard dollara çatacaq. Hazırda Azərbaycan Türkiyə iqtisadiyyatına ən çox investisiya yatıran ölkələrdən biridir. Türkiyə şirkətlərinin də Azərbaycan iqtisadiyyatına yatırımları 14 milyard dolları keçməkdədir. Bu rəqəmlər və eyni zamanda, birgə həyata keçirilən enerji, nəqliyyat layihələri hər iki ölkənin iqtisadiyyatlarının getdikcə daha çox inteqrasiya olunduğunu deməyə imkan verir".

Millət vəkili onu da bildirdi ki, Türkiyə vətəndaşları üçün sadələşdirilmiş viza rejiminin ləğv olunması yeni mərhələyə qədəm qoymuş iqtisadi əlaqələrin daha sürətlə inkişafına dəstək olacaq: "Ümumiyyətlə, təcrübə göstərir ki, insanların maneəsiz hərəkəti ölkələr arasında kapitalın sürətli hərəkətinə təkan verir və bu isə, öz növbəsində, iqtisadiyyatın dinamik inkişafını təmin edir. Digər tərəfdən, 2019-cu ilin 6 ayının yekunlarına görə, Azərbaycana səfər edən turistlərin sayının 12%-ni Türkiyə vətəndaşları təşkil edir. Azərbaycanın turizm potensialı və ölkəmizə səfər edən xarici ölkə vətəndaşlarının sayı artır. Düşünürəm ki, viza rejiminin ləğvi Azərbaycana səfər edən Türkiyə vətəndaşlarının sayının artmasına müsbət təsir edəcək. Bu istiqamətdə mövcud potensialdan daha çox istifadə etmək imkanı mövcuddur".

*"...yeni mərhələyə qədəm qoymuş iqtisadi əlaqələrin daha sürətlə inkişafına dəstək olacaq"*

***Günel CƏLİLOVA***

**Yuxarı Lars yoluna alternativin yaradılmasıyla bağlı danışıqların yeni mərhələsi başlayır. Bunu Gürcüstandakı erməni icmasıyla görüşdən sonra jurnalistlərə açıqlamasında Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan deyib.**

# Ermənistanın Rusiya ilə əlaqənin yeganə Yuxarı Lars keçidinə şübhəli alternativlər axtarışı...

## *Məhəmməd Əsədullazadə: ”Çox güman ki, Ermənistan Abxaziya vasitəsilə Rusiya ilə əlaqə saxlamaq istəyir”*




O, alternativ yol məsələsinin ilk növbədə Rusiya və Gürcüstana aid olduğunu və danışıqların davam etdirilməsi gərəkliyini bildirib.

Mnatsakanyan Ermənistanın baş verənləri diqqətlə izlədiyini, Rusiya və Gürcüstanla müzakirələr apardığını bildirib: "Təbii olaraq, bu barədə Rusiya və Gürcüstanla olduqca diqqətlə danışırıq. Bu prosesi ardıcıllıqla izləməyi davam edirik. Ümid edirəm ki, məsələ öz həllini tapacaq və nəzərəçarpan nəticə əldə ediləcək".

Mnatsakanyana sual olunub ki, bu, yaxın gələcəyinmi məsələsidir? Mnatsakanyan cavabında bunları deyib: "Ümid edirəm ki, danışıqlar yeni mərhələyə yaxınlaşır və məncə, bu baş tutacaq".

Göründüyü kimi, Mnatsakanyan açıq şəkildə konkret hansı alternativ yoldan söhbət getdiyini deməyib. Ancaq çox güman ki, söhbət Abxaziyadan keçən dəmir yolunun bərpasından gedir. Ancaq nəzərə alsaq ki, Abxaziya separatçıların nəzarəti altındadır, o zaman bunun nə dərəcədə reallaşacağı şübhə altındadır. O mənada ki, Gürcüstan buna getsə, belə çıxır ki, Abxaziyadakı separatçılarla razılaşıb.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər? Söhbət hansı alternativ yoldan gedə bilər?

### *”Bu həm də Gürcüstanın milli suverenliyini təhdid edəcək”*

Sözügedən məsələyə aydınlıq gətirən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı: "Mnatsakanyanın Gürcüstana səfərində əsasən Yuxarı Lars yolu və buna alternativ olaraq Abxaziyadan keçən dəmir yolunun açılması müzakirə predmeti olub. Çox güman ki, Ermənistan Abxaziya vasitəsilə Rusiya ilə əlaqə saxlamaq istəyir. Çünki Yuxarı Lars qış aylarında bağlı olur. Bu da Ermənistan üçün bir sıra çətinliklər yaradır. Abxaziya dəmir yolunun açılması barədə detallara varmaması bu məsələnin Azərbaycan və Türkiyə üçün mühüm amil olmasından qaynaqlanır. Abxaziyadan keçən dəmir yolunun açılması Ermənistanın Rusiya ilə quru əlaqəsinin bərpası və blokadanın qismən yarılması deməkdir. Bu həm də Gürcüstanın milli suverenliyini təhdid edəcək. Hesab edirəm ki, Azərbaycan və Türkiyə bu məsələdə aktiv olmalıdırlar. İşğalçı ölkənin Rusiya ilə dəmir yolu vasitəsilə əlaqə qurmasına imkan verilməməlidir. Bu məsələdə Ermənistan və Rusiya birgə çalışaraq regionda yeni bir situasiyanın başlanmasına, Azərbaycanın geosiyasi üstünlüyünə mane olmağa çalışırlar.

**Hesab edirəm ki, Mnatsakanyanın bu kimi səfəri əsasən regionda destabilizasiyaya xidmət edir. Azərbaycanın isə regionda siyasəti regionda təhlükəsizliyin qorunmasına xidmət edir. Ona görə də baş verən proseslər ciddidir".**

***Vidadi ORDAHALLI***

---

**İngiltərənin Mühafizəkar Partiyasının sədri, türk əsilli Boris Consonun ölkənin yeni Baş naziri seçilməsi dünya türkləri tərəfindən birmənalı qarşılanmayıb. Bəziləri onun vəzifəyə təyinatını sevinclə qarşılayıb, bunun Türk dünyası üçün xeyirli olacağını düşünürlər.**

# Britaniyanın türk əsilli yeni Baş naziri ölkəsini Türk dünyası ilə dost da edə bilər, düşmən də...

## *Yeganə Hacıyeva: ”Bütün bunların fonunda, Consonun mövzuya aydınlıq gətirməsi yaxşı olar”*



B.Consonun Çankırının Orta rayonunun Kalfat kəndində yaşayan həmkəndliləri bu münasibətlə kəndin mərkəzində yerləşən meydanda bayram ediblər. Türk əsilli siyasətçinin İngiltərədə Baş nazir seçilməsini qeyd edən kalfatlılar Boris Consonu Kalfatda görmək istədiklərini deyiblər.

Kəndin bələdiyyə sədri Bayram Tavukçu Londona gedib Boris Consona təbriklərini çatdırmaq niyyətindədir.

Mustafa Bal adlı kənd sakini isə bu kənddən və türk sülaləsindən Baş nazir çıxmasından qürur duyduqlarını belə ifadə edib: "Dünyada liderlik edəcək şəxslər bu sülalədən çıxa bilər. Burada onların nəslinə Sarıoğlangillər deyirdilər. Consonun da sarılığı sülalədən gəlir".

Ancaq tarixi proseslərə dərindən bələd olanlar isə bir qədər fərqli düşünürlər. Çünki yeni Baş nazirin soykökünü dərindən araşdıranda məlum olur ki, 55 yaşlı Boris Conson Osmanlı İmperiyasının sonuncu daxili işlər naziri Ali Kamalın nəvəsi Stenli Consonun oğludur. Ali Kamal Atatürk hakimiyyətə gələndən sonra edam olunub. Fərid Paşa hökumətində maarif və daxili işlər naziri olan Ali Kamalın babası Hacı Ahmed Rıza Əfəndi 1813-cü ildə Kalfat kəndində doğulub. Ali Kamalın erməni soyqırımını tanıdığı, hətta bununla bağlı xüsusi qeydlər yazdığı da bildirilir. Bu faktları bilən insanlar düşünürlər ki, Conson Türk dünyasından qisas almağa meylli olacaq. Hər halda, onun Türk dünyası qarşısında etibar qazanması, bir sözlə, özünü təsdiqləməsi üçün səmimi etirafına ehtiyac duyulur. Çünki Böyük Britaniya kimi ölkəyə rəhbərlik edəcək şəxsin üzərində belə şübhələrin qalması dünyadakı düzənə də ciddi təsir edə bilər. Bunun üçün Consonun məhz deyilən məzmunda mediaya açıqlama verməsinə zərurət varmı?

### *”Jestləri, Türk dünyasına yaxşı münasibətilə türklərin dostu olduğunu sübut edəcək”*

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, insan heç bir halda əcdadlarının gördüyü işlərə görə məsuliyyət daşımır: "Bu dünyada hüquq insanın öz əməllərinə görə məsuliyyət daşıması öhdəliyini yaradır. Onun babasının adı ətrafında yaradılan ajiotaj yalnız neqativliklər yaradır. 2016-cı ildə məhz sizin qəzetə verdiyim müsahibədə Trampla başlayan bir prosesdən danışmışam. Orada qeyd etmişəm ki, dünyada odioz siyasətçilərin hakimiyyətə gəlişi asanlaşır. Consonun hakimiyyətə gəlişi bizim haqlı olduğumuzu təsdiqlədi. Amma Conson nə qədər dəliqanlı olsa da, onun ənənəvi mühafizəkar ingilis siyasətçilərindən olan Çörçildən az fərqi var. Onun bəzən anlaşılan, bəzən isə anlaşılmayan zarafatlarının arxasında, əslində, böyük bir məna gizlənir. Son zamanlar bir trend yaşanır. Harada bir türk əsilli adamın irəliləyişi olursa, həmin məqam onun adının ətrafında bir qalmaqal yaradılır. Mən hesab edirəm ki, Consonun babası olan Ali Kamalla bağlı da təqdim edilən məlumatların heç də hamısı səhih deyil. Bəzi məlumatlarda onun dövləti uğrunda sona qədər vuruşan birisi olduğu qeyd edilir, bəzilərində isə Kamal xalqına, dövlətinə xəyanət etmiş bir tipaj kimi təqdim edilir. Buna görə də onun üzərindən Consona qiymət vermək doğru olmaz. Biz bunun yaxşı tərəfini götürməliyik. Türk əsilli şəxsin Britaniyanın Baş naziri seçilməsinin qürurverici hal olduğunu qabartmalıyıq. Həm də bu amildən öz maraqlarımız üçün istifadə etməyi düşünməliyik.

2015-ci ildə onun xarici işlər naziri olduğu dönəmdə Türkiyədə hərbi çevrilişə cəhd oldu. Həmin vaxt onun türk dövlətçiliyini müdafiə edən yanaşmasını gördük. Bu, konkret mövqe idi. Avropada bəziləri bunun düşünülmüş ssenari olduğunu deyirdisə, Conson tam Türkiyənin marağına uyğun mövqe ortaya qoydu. Hesab edirəm ki, bütün bunların fonunda, Consonun mövzuya aydınlıq gətirməsi yaxşı olar. Amma düşünmürəm ki, o, belə açıqlama verəcək. Jestləri, Türk dünyasına yaxşı münasibətilə türklərin dostu olduğunu sübut edəcək".

***Məhəmmədəli QƏRİBLİ***

**ABŞ istiqrazları və dollar ətrafında baş verənlər dünya dövlətlərinin diqqətini bu mövzuya daha çox cəmləməkdədir. Son il yarım ərzində ABŞ istiqrazlarının satışının geniş vüsət alması və dövlətlərin dollarla saxlanan valyuta ehtiyatlarını azaltması Azərbaycanı da müvafiq addımlar atmağa vadar edir.**

# Azərbaycan dollar və ABŞ istiqrazları ilə bağlı yeni siyasətə start verir



Xatırladaq ki, Dövlət Neft Fondunda saxlanan vəsaitlərin bir hissəsi məhz ABŞ istiqrazlarına yatırılıb. Amma real vəziyyət göstərir ki, son bir il ərzində Neft Fondu 800 milyon dollardan artıq istiqraz satıb. Prosesin davam etməsi gözlənir. Çünki dünya dövlətlərinin az qala hamısı, xüsusən də Rusiya, Çin, Yaponiya, Səudiyyə Ərəbistanı, Böyük Britaniya və digərləri ABŞ istiqrazlarını satır. Bu şəraitdə ABŞ istiqrazlarının daha çox dəyər itirməsi qaçılmaz sayılır. Elə bu səbəbdən Azərbaycanın da aktivində olan ABŞ istiqrazlarının miqdarını azaltması məqbul sayılır. Hesab edilir ki, Azərbaycan qarşıdakı dövr ərzində əlində olan ABŞ istiqrazlarını azaltmaqda davam edəcək. Eyni zamanda ölkəmizin dollarla bağlı siyasətində də yeniliklər istisna olunmur. Əslində, Azərbaycan əlində olan dollar ehtiyatının bir hissəsini ötən ildən etibarən qızıla çevirir. Artıq Dövlət Neft Fondunun qızıl ehtyiatının həcmi 100 tona çatır. Amma qarşıdakı dövr ərzində bu göstəricinin daha da artması gözlənir. Ən azı o baxımdan ki, indi aparıcı beynəlxalq maliyyə qurumları belə dolların gələcəyi ilə bağlı heç də nikbin proqnozlar vermir. Xüsusən də Amerikanın aparıcı banklarından olan "JP Morgan Chase" investisiya bankının ekspertlərinin açıqlamaları heç də nikbinlik əks etdirmir. Analitiklər bildirir ki, dollar qlobal ehtiyat valyutası kimi statusunu itirməkdədir. Bankın birja, əmtəə və faiz strategiyası mütəxəssisi Kreyq Kohen dolların 100 ilə yaxındır qlobal ehtiyat valyuta olduğunu və sadəcə amerikalıların deyil, dünyanın hər yerində bir çox sərmayəçinin portfelində məhz bu valyutaya üstünlük verdiyini bildirib: "Lakin dolların dünyaya hakim valyuta olması xüsusiyyətini itirəcəyinə inanırıq. Struktur səbəbləri və dövri manеələr səbəbilə yaxın zamanda dəyərini itirəcək". Kohen qeyd edib ki, dollar ehtiyat valyuta statusunu düşünüldüyü kimi "1944 Bretton Woods" andlaşması ilə deyil, daha çox 1913-cü ildə ABŞ Mərkəzi Bankının qurulması ilə əldə edib. Növbəti illərdə Amerikanın daimi hala gələn xarici çatışmazlıqları dünya miqyasında keçərli pul olan dolları zəiflətməkdə davam edəcək: "Dollar hakim statusunu daim qoruyub saxlayacaq deyə bir reallıq yoxdur. Əksinə, minlərlə il əvvələ baxdığımızda dünyada "iqtisadi mərkəz" dəyişdikcə beynəlxalq hakim valyutanın da dəyişdiyini görürük. İkinci Dünya müharibəsindən sonra ABŞ qlobal istehsalın 25%-ni təşkil edirdi. Qərbi Avropa qüvvələrini də əlavə edəndə bu rəqəm 40-a çatırdı. Həmin dövrdən sonra iqtisadi dirçəlişin hərəkətverici qüvvəsi ABŞ və Qərb əleyhinə, Asiyaya doğru istiqamətləndi. Yüksək böyümə və qətiyyətli reformasiya ilə Çin bu iqtisadi dəyişikliyin mərkəzində yer alır. Son 70 ildə Çin dünya miqyasında istehsal payını 4 qat artırıb və 20% səviyyəsinə (ABŞ-la eyni) çatdırıb. Bu sahədə onun genişlənməsi də gözlənir".

Mütəxəssis bildirib ki, Çin artıq sadəcə aşağı büdcəli məhsullar istehsal edən bir istehsalçı deyil: "Son dövrlərdə texnologiya kimi dəyərli sektorlara diqqət yetirilir. Çindən başqa, Hindistan da daxil olmaqla, Cənubi Asiya ölkələrinin də gənc əhalisi və daim artan texnoloji təcrübələri sayəsində böyümə performansları göstərir. Qərbdə Türkiyə və Ərəb yarımadası ilə başlayıb, Şərqdə Yaponiya və Yeni Zelandiyaya qədər uzanan, şimalda Rusiyadan cənubda Avstraliyaya qədər gedib çatan "Asiya İqtisadi Bölgəsi"nin qlobal istehsal kütləsi 50% olub. 2015-2030-cu illər dövründə gələcəyi təxmin edilən 30 trilyon dollarlıq orta sinif istehlak böyüməsinin sadəcə 1 trilyon dollarının Qərbdən gəlməsi gözlənir. Gələcək illərdə dünya iqtisadiyyatının ABŞ mərkəzli və dollar hakimiyyətində olan bir sistemdən Asiyanın daha çox güc sahibi olduğu yeni bir sistemə keçəcəyi düşünülür. Valyuta sahəsində bu, dolların digər valyutalar və qızıl kimi əmtəələrdən yaranan birja səbətinə qarşı dəyərini itirəcəyi anlamına gəlir".

Kreyq Kohenin fikrincə, bankların ehtiyatda saxladıqları dollar miqdarına baxılanda dəyişikliyin çoxdan başladığını görmək olar: "Xüsusilə, 2008-ci il böhranından sonra dünya mərkəzi banklarının ehtiyatlarındakı dolların miqdarı 64%-dən 55%-ə düşüb. Avronun tədavülə girdiyi 1999-cu ildən bu yana ilk dəfə dünya mərkəzi bankları eyni anda dollar satıb avro almağa başlayıb. Qızıl alışı da rekord səviyyəyə məhz indi çatıb. 2018-ci ildə qızıl mərkəzi banklardan 1971-ci ildən bu yana ən yüksək tələbi görüb. Ard-arda 4 rüb yaşanan qızıl alış-verişləri isə qeydlərdə yer alan ən yüksək rekord səviyyəyə çatıb. Bu, məntiqlidir. Onu dəstəkləyən insanlar arasında minillik etibarlılığını saxlayan qızıl qətiyyəli şəkildə dəyər qaynağıdır. Bizim tövsiyəmiz Asiya valyutalarına və qızıla üstünlük verməkdir".

Beynəlxalq Valyuta Fondunun hesabatına əsasən, dünyanın valyuta ehtiyatlarının təqribən 62 faizi dollarda saxlanır. Bu rəqəm avro, yen və yuanda saxlanan aktivlərdən iki dəfə çoxdur. Lakin "JP Morgan Chase"in baş iqtisadçısı Cim Qlassman bildirir ki, xarici ölkələrin ehtiyatlarında dolların toplanması heç də ona etimadın yüksək olması ilə bağlı deyil. O bunu belə izah edir: "Ticarət balansının pozulması inkişaf etməkdə olan ölkələrin valyutalarının güclənməsinə şərait yaradır, bununla da həmin ölkələrdən ixracatın qiyməti dünya bazarında daha da artır. Bunun baş verməməsi üçün inkişaf etməkdə olan bazarlar tez-tez dollar aktivlərinə, məsələn dəyəri, dollarda qiymətləndirilən və ABŞ bazarlarında satılan istiqrazlara yenidən yatırımlar edir. Amma artıq bu proses dayanır". Dünya mərkəzi banklarının valyuta ehtiyatlarına dair məlumatlar dolların rolunun uzun müddətdir ki, zəifləməkdə olduğunu göstərir. Avropa Mərkəzi Bankının dəyərləndirmələrinə əsasən, 2018-ci ildə Amerika valyutasının beynəlxalq ehtiyatlarda payı 61,7 faizə düşüb. Bu, son 20 il ərzində ən aşağı həddir.

Amerika tərəfi isə etiraf edir ki, milli valyutanın qlobal liderliyini itirməsi ölkəyə böyük problemlər gətirə bilər. Nyu-York Federal Ehtiyat Bankının vitse-prezidenti Linda Qoldberq bildirib: "Dolların əsas ehtiyat valyutası kimi hazırkı statusu ölkə iqtisadiyyatını xarici sarsıntılardan təcrid etməyə imkan verir. Valyutanın dünya bazarlarında öz dominant rolunu itirməsinin ilk növbədə emitent, yəni ABŞ üçün mənfi nəticələri olacaq". "JP Morgan"ın hesablamalarına görə, dolların dünya üzrə zəifləməsi bu ilin sonunda başlayacaq və Federal Ehtiyat Sistemi bu tendensiyanın qarşısını ala bilməyəcək. O da vurğulanır ki, gələn ilin ikinci yarısınadək dolların köklü şəkildə zəifləməsinin şahidi olacağıq. Məhz bu şəraitdə, bir çox ölkələr kimi, Azərbaycanın da dollarla bağlı yeni siyasət həyata keçirməsi tamamilə düzgün sayılır.

***Nahid SALAYEV***

# Həsən bəy Zərdabinin qohumu, təqaüdçü alim də "Unibank"ın "dollar kredit" əməllərinin qurbanlarından biri oldu

**"Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Prezident fərmanının icrasına başlandığı gündən əhalinin bəzi banklardan narazılığı artmaqda davam edir.**




Biz bu istiqamətdə apardığımız araşdırmalar zamanı müəyyən etmişik ki, vətəndaşlara dövlət tərəfindən müəyyən edilən kompensasiyaların ödənişində daha çox problemlərin yaşandığı banklardan biri "Unibank"dır. Bizə olunan şikayətlər daha çox bu məzmundadır. Vətəndaşlar qeyd edirlər ki, saytda adlarına müəyyən məbləğ kompensasiya müəyyən edilsə də, onların adına olan borc qrafasında 0 rəqəmi yazılsa da, "Unibank" onlardan faiz tutumunu davam etdirir. Araşdırmamız zamanı çox maraqlı məlumatlara rast gəlmişik. Məsələn, bank bir müddət əvvəl bəzi müştərilərini çağırıb dollar kreditini manata keçirməyi təklif edərkən, bununla razılaşan müştərilərin adına, sən demə, yeni kredit müqaviləsi rəsmiləşdirib. Yəni artıq dövlətin etdiyi güzəşt yeni müqaviləyə şamil olunmadığı üçün, müştəri məcburdur ki, dövlətdən aldığı kompensasiyanı başqa müqavilənin faizinə ödəsin.

Belə mənzərə ilə qarşılaşanlardan biri də İncəsənət Universitetinin dosenti işləmiş, Həsən bəy Zərdabinin soyundan olan Rəbiyyə Zərdabidir. Hazırda xəstəliyi ilə əlaqədar əlillik dərəcəsi alan Rəbiyyə xanım heç yerdə işləmir, yalnız əlillik müavinəti ilə dolanır. Şikayətçi "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həmin müavinəti də "Unibank"ın faizlərinə ödəməyə məcbur olub: "Mən uzun illər ali məktəbdə pedaqoji fəaliyyətlə məşğul olmuşam. Sonra xəstəliyimlə əlaqədar işdən ayrılmağa məcbur oldum. Onkoloji xəstə olduğum üçün "Unibank"a məktubla müraciət etdim ki, mənə bir qədər güzəşt etsinlər. Mən onlardan 1500 dollar kredit götürmüşdüm. Bunlar məni verdilər məhkəməyə. Heç iştirakım olmadığı məhkəmədə bank mənim əlillik pulumun kartdan onlara köçürülməsi ilə bağlı qərar çıxardırdı. Vəziyyətim həddən artıq ağırlaşdı. Çünki yeganə qazanc mənbəyim həmin kartı idi. 8 ay müddətində hər ay 100 manat mənim əlillik müavinətimdən çıxdılar. Mən ondan əvvəl də banka ödənişlər etmişdim. Demək olar ki, borcum qalmırdı. Sonra bank kreditlərinin bağışlanılması ilə bağlı Prezidentin humanist qərarı çıxdı. Baxdım ki, bank məndən yenə ödəniş tələb edir. Maliyyə Bazarlarına Nəzarət Palatasına müraciət etdim. Bunun da xeyri olmadı. Sonra "Unibank" məni yenə çağırdı. Mənə bildirdilər ki, yeni kredit açılır 5 il müddətinə. Açıq dedim ki, bundan narazıyam. Bizə güzəşt əvəzinə, yeni kredit açıblar. Bunlar mənim xəstəliyimin üstünə xəstəlik gətiriblər. Onların zəngləri, hədələri mənim vəziyyətimi daha da ağırlaşdırdı. İndi də əl çəkmirlər. Yenə məni 5 il müddətinə özlərinin girovuna çevirmək istəyirlər. Hesab edirəm ki, mənimlə bağlı Prezident fərmanı düzgün yerinə yetirilmir. Onlar mənim ödədiyim və ölkə başçısının bağışladığı pulları məndən yenə istəyirlər".

**Ödəniş müddəti keçmiş əsas kredit borclarının ödənilməsinə yönəldilən hissə* (izahlı)**

| Kredit təşkilatı | 01 mart 2019-cu il tarixinə əsas kredit borcu (manat ekvivalentində) | Borcun azaldılmasına yönəldilən məbləğ (manatla) | Qalıq borcunun məbləği (manatla) |
|---|---|---|---|
| Unibank KB ASC | 2094.01 | 425.15 | 1668.85 |
| Bank of Baku ASC | 3252.21 | 660.31 | 2591.90 |
| Unibank KB ASC | 2576.64 | 523.14 | 2053.50 |

Kompensasiya məbləği ödəniş müddəti keçmiş əsas kredit borclarınızın ödənişinə proporsional şəkildə yönəldilir.

| Kredit təşkilatı | 01 mart 2019-cu il tarixinə əsas kredit borcu (manat ekvivalentində) |
|---|---|
| Unibank KB ASC | 2094.01 |
| Bank of Baku ASC | 3252.21 |
| Unibank KB ASC | 2576.64 |

Kompensasiya məbləği ödəniş müddəti keçmiş əsas kred
ödənişinə proporsional şəkildə yönəldilir.

**Kompensasiyanın köçürüldüyü ödəniş kartının
rabitəsinin milli o**

| Kredit təşkilatı | Sərəncamda qalan hissə (manatla) |
|---|---|

**Restrukturizasiya olunması təklif**

| Kredit təşkilatı | Əsas kredit borcu (manatla) |
|---|---|
| Unibank KB ASC | 1668.85 |
| Bank of Baku ASC | 2591.90 |
| Unibank KB ASC | 2053.50 |

* Aşağıdakı şərtlərin hamısına cavab verən kreditlərin illik
faiz olmaqla 5 il (1 il güzəşt müddəti ilə) müddətinə restr
olunması təklif olunur:
- 2012-ci il 1 yanvar tarixindən sonra verilmiş;
- 2019-cu il 1 mart tarixinə 360 gündən artıq gecikməsi o
- xarici valyutada əsas kredit məbləği 10 000 (on min) AE

Rəbiyyə Zərdabi deyir ki, 1500 dollara görə onun həyatı qara gəlib: "Sizdən xahiş edirəm ki, mənim şikayətimi ictimailəşdirəsiniz. İndi də bu ilin avqustundan gələn ilin avqustuna kimi ayda 3 manat ödəməyimi tələb edirlər. Guya bizim dirçəlməyimizə yardımçı olurlar. Sonrakı illərdə isə hər ay 78 manatı 5 il müddətinə ödəməyi tələb edirlər. Mən çox xahiş edirəm ki, məsələm dəqiq araşdırılsın".

Biz edilən şikayətlə bağlı sözügedən bankın ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Sülhiyyə Şirinova ilə əlaqə saxladıq. Bank rəsmisi bizə bildirdi ki, belə hallarla bağlı dərhal nəsə cavab vermək olmur: "İstənilən şikayət xüsusi araşdırma tələb edir.

Bu səbəbdən də xahiş edirəm ki, həmin şikayəti sizə təqdim etdiyim elektron poçt ünvanına göndərəsiniz. Bankın əlaqədar şöbəsi bununla bağlı araşdırma aparacaq, ondan sonra sizə məlumat veriləcək".

Biz də, öz növbəmizdə, Rəbiyyə xanımın şikayətini təqdim olunan elektron poçt ünvanına göndərdik. Bankın təqdim edəcəyi cavabı məmnuniyyətlə dərc etməyə hazırıq.

***Məhəmmədəli QƏRİBLİ***

# 41 min müəllimdən cəmi 3 nəfər maksimum bal - müəllimlərin bilik səviyyəsi ilə bağlı nazirliyin layihələrinin gərəkliyi təsdiqlənir...

**Müəllim olmaq istəyənlər üçün keçirilən qəbul imtahanlarının birinci mərhələsi başa çatdı. Müəllimlərin qəbul imtahanlarında 41288 namizəd iştirak edib. Onlardan 18 881 namizəd (46 faiz) uğur qazanaraq, növbəti mərhələyə vəsiqə qazanıb. Məlumat üçün bildirək ki, uğur qazanan namizədlər arasında 3 nəfər maksimal (60 bal) nəticə göstərib.**



## *Kamran Əsədov: "41288 nəfərdən cəmi 3-nün maksimal bal toplaması acınacaqlıdır"*

41288 nəfərdən cəmi 3-nün maksimal nəticə göstərməsi ciddi müzakirələr yaradıb. Müəllim olmaq üçün imtahan verənlərin arasında 3 nəfərin maksimum bal toplaması ciddi narahatlığa səbəb olub.

Təhsil eksperti Kamran Əsədov bildirdi ki, 2009-cu ildən etibarən Azərbaycanda orta məktəblərdə işə qəbul müsabiqə yolu ilə həyata keçirilir: "Bunun üçün Təhsil Nazirliyinin təşkil etdiyi imtahanlarda pedaqoqlar iştirak etməlidirlər. 2009-cu ildən 2013-cü ilədək keçirilən imtahanlar fərqli idi və imtahan iştirakçıları ancaq ixtisasdan imtahan edilirdi. Bu format dəyişdi. Sonradan ora kurikulum və məntiq əlavə olundu. Hazırda müəllim işləmək istəyənlər imtahanda 60 test tapşırığını cavablandırır. Onlardan 40-ı ixtisaslarına uyğundur, 10 sual məntiq, 10 sual isə kurikulumdandır. Təəssüf hissilə qeyd edim ki, test tapşırıqları öncədən vəsait şəklində çıxmadığı üçün bu, imtahan iştirakçılarının hazırlığına mənfi təsir göstərir. Bəzi hallarda test tapşırıqları fərqli olur. Yəni dünya testologiyasına uyğun olmayan suallardır. Bu onu göstərir ki, bizim ali təhsil müəssisələrimiz əmək bazarının tələbinə cavab verən kadr hazırlığı həyata keçirə bilmirlər. Məzunlarımızın bilik və bacarıqları dövrün tələblərinə, eyni zamanda, əmək bazarının tələblərinə uyğun deyil. Bu çox ciddi siqnaldır. Hesab edirəm ki, Təhsil Nazirliyi tərəfindən pedaqoji ixtisaslar üzrə kadr hazırlığı həyata keçirən universitetlərdə monitorinq aparılmalıdır.

*"Məzunlarımızın bilik və bacarıqları dövrün tələblərinə, eyni zamanda, əmək bazarının tələblərinə uyğun deyil"*

Təbii ki, onlar abituriyent deyil. Heç bir halda onların belə aşağı nəticələri olmamalı idi. Bu aşağı göstərici ciddi həyəcan siqnalıdır ki, bizim ali təhsilli məzunlarımızın bilik və bacarığı olduqca zəifdir. 41288 nəfərdən cəmi 3-nün maksimal bal toplaması acınacaqlıdır".

***Günel CƏLİLOVA***

**Ermənistanda ötən il baş tutan hakimiyyət dəyişikliyindən sonra bu ölkədə tez-tez gündəmə gələn məsələlərdən biri də Rusiya ordusunun buradan çıxarılmasıdır. Nikol Paşinyan iqtidarının razılığı ilə bu məsələ daha çox Ermənistan Avropa Partiyasının başçısı Tiqran Hzmalyan tərəfindən gündəmə gətirilir.**

# Paşinyan ABŞ-dan aldığı direktivlər əsasında rus ordusunu Ermənistandan çıxarır



Tiqran Hzmalyan indi də hesab edir ki, Ermənistanı müstəqil ölkə adlandırmaq olmaz, çünki onun sərhədlərini Rusiya qoşunları qoruyur, üstəlik, iqtisadiyyatı da Rusiyaya məxsusdur: "Biz qarşımıza yalnız Rusiya bazasının Ermənistandan çıxarılması məqsədini deyil, həm də ölkəmizin müstəmləkə vəziyyətindən qurtarılması məqsədini qoymuşuq. Ermənistan Rusiya tərəfindən işğal edilmiş və müstəmləkə olan ərazidir. İqtisadiyyatın nəhəng bir hissəsi başqa ölkəyə aiddirsə, həmin ölkənin qoşunları sərhəddə durubsa, Ermənistan-Rusiya münasibətlərindən danışmaq ciddi olmaz, bu, təhkimçi, vassal münasibətləridir". Bütün bunlar fonunda diqqət cəlb edən daha bir məsələ Ermənistan rəsmilərinin bu ay ABŞ-a baş tutan səfərlərindən sonra Rusiya qoşunlarının çıxarılmasının okeanın o tayında da gündəmə gəlməsidir. Xatırladaq ki, bu günlərdə Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan, parlamentinin sədri Ararat Mirzoyan, baş nazirin müavini Tiqran Avinyan Amerikada səfərdə olub. Ararat Mirzoyanın rəhbərlik etdiyi nümayəndə heyətinin ABŞ-da keçirdiyi görüşlərdən, xüsusən də konqresmenlərlə bir araya gəlməsindən sonra rus ordusunun Ermənistandan çıxarılması yenidən gündəmə gətirilib. ABŞ Konqresinin Ermənistanla dostluq qrupunun həmsədri, konqresmen Frenk Pallone bunu onunla izah edib ki, Ermənistanda rus hərbi bazası və rus qoşunları mövcud olduğu müddətcə İrəvan birmənalı şəkildə Rusiyanın təsiri altında olacaq. Bu təsirdən çıxmaq üçün isə rus ordusu Ermənistanı tərk etməlidir:

"Amma demokratik dəyərlərdən ermənilərı, hətta Ermənistanda dislokasiya olunan rus qoşunları da geri çəkə bilməz. Qərbdə əmindirlər ki, Ermənistanda rus hərbi bazası və rus qoşunları mövcud olduğu müddətcə Ermənistan birmənalı şəkildə Rusiyanın təsiri altında olacaq. Düzdür, reallıqda anlayırıq ki, Türkiyə tərəfindən ehtimal edilən müdaxilə, yaxud Azərbaycanla mümkün müharibə vəziyyətində Ermənistan Rusiyadan asılıdır". Bununla belə o, rus ordusunun Ermənistanı tərk etməsinin vacibliyini də bildirib.

Rusiyalı ekspert Stanislav Tarasov isə bu fonda diqqəti ona yönəldir ki, Paşinyan Rusiyaya qarşı olan Qərbyönlü siyasətinə hələ də son qoymayıb və bu da Gümrüdəki Rusiya bazası ilə bağlı ziddiyyətli vəziyyət yarada bilər: "Lazımi qədər izləyirəm və hesab edirəm ki, Ermənistan hakimiyyəti inqilab janrından heç bir yolla çıxa bilmir. O artıq köhnəlib, onun zamanı keçib. Başqa janra çıxmaq, nəticələri göstərmək və işləmək lazımdır. Aydın, obyektiv yolla izləmək və başa düşmək lazımdır ki, Ermənistan hansı vəziyyətdədir. Ermənistanın dörd sərhədindən ikisi bağlıdır, ABŞ, Avropa İttifaqı uzaqdır. Gürcüstan nümunəsini müşahidə etmək lazımdır. Gürcüstana baxaq, söhbət rus sanksiyalarından gedir. Lari kəskin şəkildə düşdü, benzinin qiyməti qalxdı. Bu da sizə Gürcüstanın Rusiyadan real iqtisadi asılılığı. Çox uzağa getmək lazım deyil. Lakin ermənilər də cəhd etmək istəyirlər, qoy etsinlər".

Ekspert vurğulayır ki, çoxvektorlu siyasət yürütmək cəhdi Ermənistan üçün də problemlərə gətirib çıxara bilər. Tarasov xatırladır ki, əslində, Rusiya-Türkiyə əlaqələrinin istiləşməsi fonunda İrəvanın Qərbə yönəlik addımları Ermənistan üçün ciddi problemlər yarada bilər. Xüsusən də rus ordusunun bu ölkədən çıxarılması yenidən aktual şəkildə gündəmə gələrsə: "Onu da deyim ki, Paşinyan öz inqilabı ilə çox gecikib. Bunu 5 il əvvəl etmək lazım idi. Hazırda ruslar türklərlədir, inqilab ermənilərə heç nə verməyəcək. Biz Türkiyə iləyik".

Digər rusiyalı politoloq Yevgeni Mixaylov da bildirir ki, İrəvan Vaşinqtondan gələn göstərişlərə riayət etməklə ciddi yanlışlıqlara yol verir. Onun sözlərinə görə, bu gün regionda rəsmi Bakı Türkiyə və Rusiyanın maraqlarına zidd hərəkət etmir və bu istiqamətdə məharətli siyasət yürüdərək mövqelərini daha da gücləndirir. Amma Ermənistanda bu alınmır və üstəlik, ABŞ-dan gələn direktivlər İrəvanın təkcə Moskva yox, həm də Tehranla münasibətlərini korlayır: "Biz başa düşürük ki, İrana hava zərbəsi endirilməsi üçün ən münasib ərazi kimi Gürcüstan və tamamilə Qərbə tərəf çevriləcəyi halda Ermənistanı göstərmək olar. Qoy İrəvanın yeni rəhbərliyi sədaqət və strateji tərəfdaşlıq barədə sözlərini Ermənistanda baş verənləri anlamayanlara saxlasın. İrəvan çalxalanır, siyasi cəhətdən stabil deyil, Bakı isə heç bir hərbi-siyasi bloka qoşulmamaqla bağlı qəti mövqeyə sahibdir. Bu daha düzgündür".

Erməni ekspert Naira Ayrumyan da etiraf edir ki, İrəvanın xarici siyasətdə yol verdiyi yanlışlıqlar Rusiya ilə münasibətləri daha da pisləşdirə bilər. O bu vəziyyətdə rus ordusunun Ermənistandan çıxarılmasının İrəvan üçün əlavə təzyiqlər yaradacağın da vurğulayır. Ayrumyan qeyd edir ki, Ermənistanın Sərhəd Qoşunları hazırda yox vəziyyətindədir. Çünki Azərbaycanla sərhəd Ermənistan Müdafiə Nazirliyinin sərəncamındadır. İran və Türkiyə sərhədini Rusiya qoşunları qoruyur. Həmin qoşunlar Gümrüdəki 102-ci hərbi bazada və Erebuni hava limanında yerləşir. Hərbi bazanın sərəncamında tanklar, zirehli texnika, hərbi təyyarələr, helikopterlər və 5 min hərbçi var. Ermənilər bu barədə sussalar da, Gürcüstan NATO-ya girməyə namizəd olandan sonra onun da sərhədləri, demək olar ki, rus hərbçilərinin nəzarətindədir. Lakin Ayrumyan qeyd edir ki, bağlanmış müqaviləyə görə, Rusiya Ermənistana göstərdiyi qayğı nə vaxtsa sona çatmalıdır. Onun sözlərinə görə, Ermənistan bu məsələyə indidən hazırlıq görməlidir.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ münaqişəsi Paşinyan iqtidarının da sonunu sürətlə hazırlayır

**Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanması fonunda Ermənistanda davamlı şəkildə pisləşməkdə olan sosial-iqtisadi vəziyyət Nikol Paşinyan iqtidarı üçün də ciddi problemə çevrilir. Məsələ burasındadır ki, İrəvanın sosial-iqtisadi sahədə istənilən təşəbbüsü iflasa uğrayır.**

Yeni hökumət də bu fonda aydın görür ki, Azərbaycan və Türkiyə ilə münasibətləri qurulmadan, ölkə regionda həyata keçirilən layihələrə qoşulmadan Ermənistanda hansısa inkişafdan söhbət gedə bilməz. Bütün bunlar üçün isə Qarabağ münaqişəsinin çözümü əsas şərt qismində çıxış edir.

İndilikdə isə məhz sözügedən konfliktin həllinin uzanması səbəbindən Ermənistan ciddi problemlər məngənəsində boğulur və hətta hadisələrin indiki inkişaf axarı daha sürətlə Paşinyanın əleyhinə işləyir. Xüsusən də Ermənistanın Azərbaycanla sərhəd İcevan rayonunda bu günlərdə baş vermiş hadisələr Nikol Paşinyan və hökuməti üçün ölkəni bürümüş yoxsulluq və işsizlik problemlərindən qaynaqlanan ilk ciddi siqnal hesab edilə bilər. Xatırladaq ki, burada meşə təsərrüfatında özəl biznes fəaliyyəti ilə məşğul olanların hökumətin qərarına qarşı keçirdikləri etiraz aksiyası iğtişaşlarla nəticələnib. Bundan əvvəl Ermənistan parlamenti meşələrin qanunsuz qırılması üçün cinayət məsuliyyəti nəzərdə tutan qanunvericiliyə dəyişiklər edib. İşsizlikdən gileylənən İcevan sakinləri isə jurnalistlərə odun satmağı yeganə qazanc yeri adlandırıblar. İcevan hadisələri Ermənistan hökumətinin son iclasının əsas məsələsi olub. Paşinyan öz doğma şəhərindəki etiraz aksiyasının meşələrdə ağacları qanunsuz kəsib odun satmaqla məşğul olanlar tərəfindən təşkil edildiyini bildirib. Paşinyan etirazçıların tələblərini əsassız adlandırıb və meşə ağaclarını qırmaq məsələsində güzəşt edilməyəcəyini bildirib: "Heç bir kompromis, qanunsuz kompromis olmayacaq. Mən hüquq-mühafizə sistemi qarşısına çox aydın tapşırıq qoyuram və burada söhbət Polis, Milli Təhlükəsizlik Xidməti və başqa hüquq-mühafizə orqanlarının funksionallığından gedir. Qanunsuz fəaliyyətlə heç bir kompromis olmayacaq. Heç kəs Ermənistan hökuməti ilə şantaj dilində danışa bilməz və bunun praktik tətbiqi hüquq-mühafizə sisteminin borcudur". Reallıq isə göstərir ki, Ermənistanın Azərbaycanla sərhəd bölgələrində, ölkənin digər yerlərində olduğu kimi, total yoxsulluq və səfalət hökm sürür. Doğrudur, yaşayış məntəqələrinin çoxunda hökumət sərhədyanı kəndlərin sakinləri üçün təbii qaza güzəştli tarif tətbiq edir. Lakin əhali olduqca yoxsul olduğundan, istifadə edilən təbii qazın haqqını güzəştli tariflərlə də ödəyə bilmir və nəticədə yanacaq kimi odundan istifadə edir. İcevan meşələri həm də əhalinin dolanışıq mənbəyidir, onlar meşələrdən indiyədək maneəsiz odun tədarük edərək satırdılar. İndi isə hökumətin tətbiq etdiyi qadağalar əhalini əsas dolanışıq mənbəyindən məhrum etmiş olur. Paşinyan hökuməti isə əhaliyə dolanışıq üçün alternativ imkanlar yaratmaq, yeni iş yerləri açmaq və kənd təsərrüfatının inkişafını stimullaşdırmaq imkanında deyil. Onun hakimiyyətə gələrkən verdiyi populist vədləri reallaşdırmaq elə də asan deyil, bütün cəhdlərə və "məxməri inqilab"la bağlı təbliğata baxmayaraq, Ermənistana sanballı investisiyalar cəlb etmək mümkün olmur.

Belə vəziyyətdə daha bir insident Gümrüdə qeydə alınıb. Ermənistanın "Qraparak" nəşri yazır ki, üzləşdikləri böyük çətinliklər üzündən Gümrü sakinlərinin çoxu Paşinyana nifrət edir və onu baş nazir kimi görmək istəmir. bunu Paşinyan da yaxşı bilir. Qeyd edək ki, Paşinyan bu günlərdə Gümrüdə olub. Onun gəldiyi Gümrü Texnologiya Mərkəzinin ətrafının öncədən blokada alınması Gümrü sakinlərini qəzəbləndirib. Məhz bu səbəbdən xalq Paşinyanla görüşüb problemlərini birbaşa onun özünə çatdıra bilməyib. "Qraparak" yazır ki, bu da əhalidə baş nazirə qarşı nifrəti artırır: "Maneələr aradan qaldırılmazsa, xalq daha da qəzəblənəcək. Bloklanmış küçələrlə təsadüfi insanlar keçə bilməz. Gümrü sakinlərinin fikrincə, öncədən hazırlanmış adamlar var ki, Paşinyanın simasını qoruyub saxlamaq üçün onlara bu bloklardan içəri daxil olmağa icazə verəcəklər. Paşinyanın səfərindən əvvəl Gümrünün bir çox küçələrində "Nikolu inkar et" yazıları peyda olub. Bununla da vətəndaşlar Paşinyanın yürütdüyü siyasətlə razı olmadıqlarını ifadə edirlər. Faktiki olaraq, Gümrüdə xalqla baş nazir arasında maneələr qoyulub. Xalqın baş nazirə yaxınlaşmaması üçün Gümrü Texnologiya Mərkəzinin ətrafı tamamilə maneələrlə bloklanıb. Əslində Paşinyan başa düşür ki, çoxları ondan narazıdır və vətəndaşlara ona yaxınlaşma imkanı verilərsə, bu zaman Paşinyanın əsl siması ortaya çıxacaq, o halda çoxlarının reallıqda onu qəbul etmədiyi məlum olacaq".

Daha bir problem isə Göyçə gölündə balıq ovlamağa qadağa qoyulması ilə bağlıdır. Ətrafda yaşayan insanlar indiyə qədər Göyçə gölündə balıq ovlamaqla dolanışıqlarını təmin ediblər. Amma hökumət artıq bunu da qadağan edib. Hakimiyyət tərəfindən əhalinin qanunsuz fəaliyyətinə mane olmaq cəhdləri xalq müqavimətini dərinləşdirir. Beynəlxalq münaqişələr üzrə rusiyalı ekspert Yevgeni Mixaylov bütün bunların Ermənistan hakimiyyəti üçün ciddi problemlərə gətirib çıxardığını bildirir: "İcevanda hakimiyyətin və sadə xalqın qarşıdurması ondan xəbər verir ki, Nikol Paşinyan sağ qalmaq üçün istənilən şansdan istifadə edən əhaliyə qarşı çıxıb. Məhz sağ qalmaq üçün. Bu vəziyyətdə Paşinyanın xalqın etimadını itirməsi tam aydın fakt olaraq üzə çıxır. Hərçənd o, ermənilər əvvəlki rüşvətxorlardan bezəndə xalqın dəstək dalğası ilə ölkə rəhbərliyinə gəlmişdi. İndiki baş nazir insanlara inkişaf və iqtisadi yüksəliş vədi vermişdi. Lakin bunlar yoxdur və üstəlik, vəziyyət yalnız pisləşir. Hətta Rusiyadakı ermənilər Paşinyanın onları məyus etdiyini hər yerdə dilə gətirirlər. Heç nə dəyişməyib. Oğruları digər oğrular əvəzlədi və sadə əhali ümidlərində yenidən yanıldı. Burada İrəvanın siyasi isteblişmentinin müzakirə etməyi xoşlamadığı köhnə və hamının bildiyi ifadəni xatırlamaq yerinə düşərdi. Bütün tarix boyu erməni xalqının satqınları hər şeydən əvvəl onun siyasi elitaları olub. Onlar öz maraqlarına nail olmaq üçün öz ölkə və xalqını təqib və səfalət fəlakətinə düçar ediblər.

Tamamilə aydındır ki, İrəvanda klanların qarşıdurması öz pik həddinə çatır və Paşinyan respublikanı idarə etmək qabiliyyətini itirir. Hakimlərin əlaqələrinə və məvaciblərinə nəzarət etmək cəhdləri, bunu ictimaiyyət qarşısına çıxarmaq ona bərpaolunmaz zərərlər vurub. Aydındır ki, hakim kastası qapalı birlikdir və baş nazir kütlələr üzərində nəzarətin çox vacib sahəsini özünə qarşı kökləyib. Keçmiş sovet məkanının bütün ölkələrində hakimlər zəngin insanlardır. Onların fəaliyyətlərində korrupsiya tərkibi ehtimalı olduqca böyükdür. Və bu birliklə tədricən mübarizə aparmaq, zəruri nəticələrə çatmaq üçün taktikanı bir-bir dəyişmək lazımdır. Sənin özündə hakimiyyət yalnız xəyalidirsə, onilliklər ərzində qurulmuş məhkəmə korpusuna qarşı müharibə elan etmək lazım deyil. Bu, yalnız Baş nazirin onsuz da laxlayan mövqelərini pisləşdirib".

Yaranmış durumda Paşinyanın mövcud daxili siyasi və sosial şəraitdə Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması istiqamətində dolğun işləmək iqtidarında olub-olmamasına gəlincə, ekspert qeyd edir: "Paşinyanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanması baxımından qabiliyyətinə gəlincə, bu barədə illüziyalara qapılmaq lazım deyil. Hazırda Paşinyanın əsas məqsədi onu hakimiyyətdən məhrum etmək üçün xalqın yenidən küçələrə çıxmamasıdır. Müvafiq olaraq, Qarabağ problemi onun üçün birinci yerdə deyil. Bu onun bir-birinə zidd bəyanatlarından da aydın görünür. O, gah sülh və danışıqlara hazırdır, gah da onun ətrafı hərbi əməliyyatlar aparmağa və yeni ərazilər tutmağa hazır olduqlarına dair bəyanat verirlər. Amma istənilən halda, Qarabağ münaqişəsinin davam etməsi Ermənistana sosial-iqtisadi sahədə getdikcə daha böyük zərər vurur. Bunu Paşinyan ötən bir ildə hakimiyyət rəhbəri kimi getdikcə daha yaxşı görür".

Digər ekspertlər də bu fikri bölüşür ki, Ermənistandakı sosial-iqtisadi böhran və onun nəticələri yalnız sülh, sabitlik və təhlükəsizlik şəraitində aradan qaldırıla bilər. Münaqişənin həll olunmaması və İrəvanın bu münaqişənin dinc yolla nizamlanması üzrə danışıqlar prosesini süni şəkildə uzatması regional inkişafı əngəlləyir, təcavüzkar ölkənin özünün inkişafını iflic edir. Belə olan halda Ermənistanın münaqişənin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həllinə razılıq verməkdən başqa yolu yoxdur.

Yalnız konstruktiv mövqe sergiləməklə münaqişənin həllinə zəmin yaradacağı halda Ermənistan regional layihələrə qoşula bilər. İqtisadi layihələrin iştirakçısına çevrilməklə, təbii ki, İrəvan öz iqtisadiyyatını tənəzzüldən xilas edə bilər. Digər tərəfdən, işğal siyasətindən əl çəkməklə Ermənistan Türkiyə ilə sərhədlərin açılmasına da nail ola bilər. Bu da bu ölkənin uzun illərdən bəri iqtisadi böhranın əsas səbəblərindən biri olan blokada vəziyyətindən çıxması deməkdir. Azərbaycanın təklifi isə ondan ibarətdir ki, işğal olunmuş ərazilər azad edildikdən sonra Dağlıq Qarabağın hüquqi statusu hazırlana, gələcəkdə Azərbaycan və erməni icmalarının dinc birgəyaşayışı, regionun iqtisadi, sosial, mədəni inkişafının mexanizmləri hazırlana bilər. Bütün bunlardan tam aydın görünür ki, Qarabağ münaqişəsinin həllindən faydalana bilən əsas tərəflərdən biri məhz Ermənistanın özü olacaq. Əks təqdirdə, indiki Ermənistan hakimiyyəti də daxil olmaqla, gələcəkdə iqtidara gələn istənilən qüvvə üçün Qarabağ məsələsi sosial-iqtisadi problemlərin başlıca mənbəyi olaraq qalmaqda davam edəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Restoran-kafelərin 10 faiz xidmət haqqı oyunu - vəsait vergidən yayındırılır, xidmətçilər bir qəpik də almır...

**Ölkəmizdə fəaliyyət göstərən kafe-restoranların fəaliyyətinə birmənalı münasibət yoxdur. Elə yerlər var ki, yaxşı xidmət və dadlı təamlar təqdim etsələr də, yekun hesabda müştərini aldadırlar. Bir çox restoran müştəriyə menyu təqdim etmir. Müşahidələrimiz göstərir ki, bəzi restoranların menyuda göstərdiyi qiymətlə yekun hesab arasında kəskin fərq yaranır.**



Bir sözlə, tətbiq edilən bütün bu fırıldaq metodlar həm də ölkəmizin turizm potensialına mənfi təsir göstərir.

Son zamanlar isə restoranlar yeni fırıldaq metodundan daha çox istifadə etməyə başlayıblar. Göstərdiyi xidmətlə bağlı heç bir güzəşt təqdim etməyən restoran sonra təqdim etdiyi hesabın üzərinə ümumi məbləğin 10 faizini də əlavə edir. Çox maraqlıdır ki, restoran ucuz alıb baha satdığı və bundan qazanc götürdüyü xidmətdən əlavə də "ofisiant payı" adı ilə müştərinin cibinə girmək istəyir. Həmin restoranlardan birində fəaliyyət göstərən ofisiantlarla etdiyimiz söhbət zamanı məlum olur ki, onların adı ilə alınan faizdən onlara heç nə çatmır: "Bizə gündəlik 15 manat pul verirlər. Bir də müştərinin əlavə verdiyi "çayevoy" özümüzə qalır. Ümumi hesaba əlavə olunan 10 faizi restoran yiyəsi özünə götürür". Belə durumla rastlaşanlardan biri, vətəndaş Miryusif Həsənzadə "Bakı-Xəbər"ə açıqlamasında bunun son vaxtlar dəb halını aldığını və böyük narazılığa səbəb olduğunu bildirdi: "Ölkəmizdə turizmin inkişafına mənfi təsir edən bir çox amil var. Bunlardan önəmli səbəblərdən biri də restoranlarda xidmətin və keyfiyyətin aşağı, qiymətin isə qat-qat yüksək olmasıdır. Təqdim edilən son hesab qəbzlərinin hissəsindəki "servis" haqqı adı ilə müştəridən ümumi hesabın 10 faizi tələb olunur. Deməli, restoran sahibləri bu qədər baha qiymətlərin qarşısında işçilərin maaşını da müştərilərə, yəni normal yanaşsaq, turistlərə ödətdirirlər. Məgər xidmət göstərən ofisiantlarla müştərinin müqaviləsi var ki, müştəri xidmət haqqı ödəyir? Bu restoranlarda gün ərzində ən azı 150-200 nəfər yemək yeyir. Hər müştəridən orta hesabla 5 manat xidmət haqqı tutsalar, bu, gün ərzində 750-1000 manat civarında pul deməkdir. Onda sual yaranır: restoran sahibi bu pulu günün sonunda ofisianta verirmi? Yox təbii ki. Bu rəqəmləri 30 günə vursaq, 22500-30000 manat olur. Ofisianta isə ən yaxşı halda ayda 300 manat verilir. Bu məbləğ də 100 nəfər ofisiant və digər işçi deməkdir. Sual yaranır, bu restoranların hansında 100 nəfər işçi var? Deməli, belə çıxır ki, restoran sahibləri bu variantla müştərinin cibinə girirlər. Bir də əvvəlcədən müştəriyə heç bir məlumat verilmir. Müştəri iradəsindən asılı olmayaraq soyulur. Bu cür ödənişlər həm də vergiyə cəlb edilmədiyi üçün, kütləvi vergidən yayınma halları baş verir".

Ekspert Elşən Əliyev də hesab edir ki, bu cür hallarda müştərinin aldadılması baş verir: "Bəlkə müştəri menyuya baxıb ona uyğun şəkildə sifariş verib ki, hesabı ödəməyə pulu çatsın. Üstünə 10 faiz gəlməklə ola bilər ki, müştərinin cibində həmin məbləğ olmasın.

Nəticədə biabırçı mənzərə yaranır. Əksər hallarda biz görürük ki, həmin 10 faizdən əlavə olaraq, xidmətçilər müştərinin verdiyi "çayevoy"u da qəbul edirlər. Onda sual olunur: restoran niyə xidmət üçün iki dəfə müştəridən əlavə pul alır? Əlaqədar qurumlar mütləq bu vəziyyətə nəzarət etməlidirlər. Yoxsa bunun bir adı var: müştərinin cibinə girmək".

***Məhəmmədəli QƏRİBLİ***

# İctimaiyyət üçün pulsuz çimərliklərin yaradılmasına tələbat gündən-günə artır

**Bir neçə ildir ənənəvi xarakter almış amillər çimərliklərdən istifadəyə maneçilik yaradır. Çimərliklərə girişin pullu olması, ekoloji vəziyyəti, bəzi çimərliklərin ətrafına hasar çəkilməsi vətəndaşların bu imkandan istifadəsini məhdudlaşdırır. İş o yerə çatıb ki, hazırda pulsuz çimərliklərin də sayı azalıb. Olanlar da pis gündədir. Halbuki, belədə bütün çimərliklər pulsuz olmalıdır.**



***Məhərrəm Zülfüqarlı:*** *"İllərdir pulsuz çimərliklər məsələsi gündəmdədir, amma bu məsələ həll edilmir"*

Çimərliklərin əksəriyyəti bəzi sahibkarların özəl mülkünə çevrilib. Bu işbazlar vətəndaşların çimərliklərdən istifadə etmək hüququnu məhdudlaşdıraraq, çimərliyə giriş üçün müəyyən məbləğ də təyin ediblər. Təbii ki, istirahət üçün hansısa xidmət qarşılığında pul ödənilir. Elə çimərliklər var ki, qapısından girmək belə pulludur. Qiymət isə 5, 10, 15, hətta 20 manat arasında dəyişir.

Digər tərəfdən, son illər Abşeronun bəzi çimərlikləri həddindən artıq çirklənməyə məruz qalıb. Çirkab sularının dənizə axıdılması və ərazini bürüyən üfunət qoxusu, sahilboyu zibil qutularının olmaması və bu səbəbdən ərazinin zibillənmə problemi çimərlik mövsümü üçün prioritet mövzulardan biridir.

Bu arada Bakıda pulsuz çimərliklərin yaradılmasına qərar verilib. Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətinin rəhbəri İsrafil Kərimov bildirib ki, Bakı şəhərində çimərlik mövsümündə vətəndaşlardan daxil olan müraciətlər, onların istək və arzuları nəzərə alınaraq, aidiyyəti dövlət qurumlarının tapşırıqlarına əsasən paytaxtın bir sıra dənizkənarı ərazilərində ictimai çimərliklərin yaradılması işlərinə başlanıb. O bildirib ki, ilkin mərhələdə bu çimərliklər Səbail rayonu "Şıx" ərazisində və Novxanı qəsəbəsində, sonradan isə Hövsan, Buzovna, Bilgəh, Nardaran, ümumilikdə, 7 ərazidə yaradılacaq: "Çimərliklərə giriş pulsuz olacaq, müvafiq qurumlar tərəfindən bura nəzarət ediləcək".

Sözügedən qərarı ekspertlər necə dəyərləndirirlər? Bu zaman hansı məqamlara diqqət edilməlidir?

*"Yaxşı olardı ki, sözügedən problem kökündən həll edilsin"*

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlı, prinsipcə, bu qərara müsbət yanaşdı. Ancaq onun fikrincə, elə etmək lazımdır ki, vətəndaşlar, praktiki olaraq, pulsuz çimərliklərdən faydalana bilsinlər: "Ümumiyyətlə, neçə vaxtdır pulsuz çimərliklər məsələsi müzakirə edilir. Xəzər dənizinin hasarlanması, dənizin sahilində müəyyən obyektlərin tikilməsi, dənizin insanların üzünə bağlanması narazılığa səbəb olur. Bəzi çimərliklərin adı pulsuz olsa da, orada sanitar vəziyyət pis gündədir. Həmin çimərliklərə yaxın durmaq belə mümkün deyil. Bütövlükdə, ölkədə pulsuz çimərliklərə böyük tələbat var. Bakı Şəhər İcra Hakimiyyəti pulsuz çimərliklərin yaradılması ilə bağlı belə bir addım atırsa, bunu müsbət qiymətləndirmək lazımdır. Yaxşı olardı ki, deyildiyi kimi, çimərliklər pulsuz olsun. Yəni, praktiki olaraq, bu özünü əməldə göstərsin. İndi baxaq görək bununla bağlı vəziyyət necə olacaq. Əgər doğrudan da bunu edəcəklərsə, o zaman çox yaxşı. Yoxsa söz verib etməyəcəklərsə, o zaman bu sahədə problemlər həll edilməyəcək. Çünki illərdir pulsuz çimərliklər məsələsi gündəmdədir, amma bu həll edilmir. Ona görə də yaxşı olardı ki, sözügedən problem kökündən həll edilsin, alayarımçıq xarakterli olmasın".

***Vidadi ORDAHALLI***

**İyul ayının 29-u Azərbaycanın Cənub bölgəsinin görkəmli din xadimlərindən olan Hacı Seyid Mir Taha ağanın il mərasimidi. Dördüncü İmam Zeynal Abidin əleyhissəlamın nəslindən olan Mir Taha ağanın doğulduğu, hamının Seyidlər ocağı, Seyidər kəndi kimi tanıdığı qədim Xəlifəli, bugünkü Perimbel kəndi Tanrının qüdrətli qələmilə yaranmış möcüzədi. Ağanın uşaqlığı, yeniyetməlik illəri bu kənddə keçmiş, sonra ağır repressiya illəri başlamış, kəndin bir çox ziyalıları ağır məşəqqətlərə, təzyiqlərə, sürgünlərə məruz qalmışlar.**

# Yolu kəhkəşan yolu...








Hacı Seyid Mir Taha ağa ən çətin anlarda belə əqidəsindən, tutduğu yoldan dönməmiş, islam dininin ən böyük təbliğatçılarından biri olmuşdur.

Bir insanı tanımaq üçün doğulduğu ocağa, elə-obaya baş çəkməlisən, övladlarını, dostlarını, doğmalarını, qonum-qonşularını, el ağsaqqallarını, ziyalıları dinləməlisən, bir daşa söykənib, bir bulağın pıçıltısını eşitməlisən.

Biz də Hacı Seyid Mir Taha ağanın uşaqlıq dostları, doğmaları ilə, ağanı yaxından tanıyan, sağlığında onunla görüşən insanlarla söhbət etdik. Onların hamısı Peyğəmbər nəslindən olan bu fenomen insan haqqında ən zərif, ən munis duyğularını ifadə etdilər. Mən bu söhbətlərdə müqəddəs bir insanın möhtəşəm portretini gördüm.

Hacı Mirdəhəz ağa: "Biz Hüseyni seyidləriyik. Bizim ağzı dualı, əli dəstəmazlı, haqqa, halala söykənən, qəlbi daima Allahla, peyğəmbərlə olan seyidlərimizi təqib ediblər, zülmə, işğəncəyə, sürgünlərə məruz qoyublar.

Təkcə bizim Perimbeldən 6 günahsız alimi gecə ikən yox ediblər. Nə üçün? Çünki bura ocaq idi. Bu ocaq alovlana, zülmət beyinləri işıqlandıra bilərdi.

İstər çar Rusiyası olsun, istərsə də Sovet imperiyası, bundan qorxurdu. Ağa ömrünün sonuna qədər heç bir təqibdən qorxmadı. İslam dininin ən layiqli təbliğatçılarından oldu. Eldə-obada xətri, hörməti uca tutuldu, qapısı el üzünə açıq oldu. Indi Hacı Seyid Mir Taha ağa yoxdu. Elə bil qolum-qanadım sınıb. Perimbeldəki o uşaqlıq illərimiz yada düşür.

Haqq dünyasında olan qardaşıma Allahdan rəhmət diləyirəm".

Bəydili Cümə Məscidinin axundu Hacı Abuzər Hacı Soltan oğlu: "Hacı Seyid Mir Taha ağa Cənub bölgəsində insanların sağlam dini ruhda maariflənməsi yolunda müstəsna iş görmüş məşhur din xadimlərindəndi. Ağa ömrünü islam dini yolunda şam kimi əritmiş müəllimi Axund Molla Hüseyn kimi əqidəsindən, məsləkindən bircə santim belə dönməmişdir.

Ağanın neçə-neçə tələbələri var. Onların hər birində ağadan qalmış nəsə gözəl bir keyfiyyət yaşayır.

Məclislərdə ədəb, əxlaq, tərbiyə mövzusunda söhbətləri, ilahi kitabımız olan Qurani-Kərimin ayrı-ayrı ayələrinin misilsiz şərhləri Mir Taha ağaya həmişə hörmət, ehtiram gətirmişdi.

Əməlsiz alim yağışsız bulud kimidir. Səhranın üstündən ötüb keçər, quraq çöllərə, susuzluqdan yanan, cadar-cadar olan təşnə dodaqlara bircə gilə su səpməz.

Ağanın böyük məclisləri süsləyən söhbətlərindən doymaq olmurdu. Nə üçün? Çünki bu söhbətlərdə Quranın möcüzəsi, hikməti var idi, insanlığa çağırış nidaları, qiyamət gününün həyəcan təbili var idi.

Mir Taha ağanın hər söhbəti insanları düşündürürdü. Çünki o, müqəddəs kitabımız Qurana söykənir, ordan qaynaqlanırdı. Ona görə ağamızın işığı, ziyası tükənmirdi. Bir bulağın gözü haqdan qaynaya, o bulaq quruyarmı?

Məclislərdə ağam ata öz oğluna eləmədiyi ehtiramı, hörməti bizlərə edib. O, Hatəm səxavətliydi, insanlara yaxşılıq etmək üçün doğulmuşdu".

Hacı Mirbəşir ağa: "Hacı Seyid Mir Taha ağanın üzünün nurunda, hərəkətlərində əsl Peyğəmbər övladı olması özünü büruzə verirdi. O, Əhli-Beyt aşiqi idi, məclislərdə hər dəfə şahidi olurdum ki, Əhli-Beytdən danışanda, Imam Hüseynin (ə.s.) adı çəkiləndə ağanın rəngi dəyişir, gözlərindən İmamın eşqindən sel kimi yaş axırdı.

Təqdiri qəza qüvveyi bad ilə dönməz,
Bir şəm ki həqdən yana, min bad ilə sönməz.

Mir Taha ağa Peyğəmbər övladı idi. Günəş Günəşdirsə, onun zərrəsi də Günəşdir. Ağa həqiqi mənada cəddinə layiq bir seyid olmuşdur.

Mir Taha ağa xoşbəxt valideyn idi. .Övladlarının hamısı iman əhli, Quran əhli, ağanın yolunu davam etdirirlər. Cəmiyyət içində böyük hörmət, nüfuz sahibləridir".

Akif Naib oğlu Kazımov: Hacı Seyid Mir Taha ağa yüksək mənəvi əxlaqa malik olan nümunəvi ailə başçısı, mehriban ata, sevimli baba, istəkli qohum, mərd insan olub. Onun sözü və əməli həmişə vəhdət təşkil edib. Bir din xadimi və Əhli-Beyt nümayəndəsi kimi əhalinin xeyir-şər məclislərində həmişə böyük Allah-təalanın yolunu, insanlığı, səmimiyyəti, mehribanlığı təbliğ edib.

Biz fəxr edirik ki, uzun müddət bu nurani və parlaq şəxsiyyətlə ünsiyyətdə olmuş və mənəvi cəhətdən ondan bəhrələnmişik".

Hacı Seyid Mir Taha ağa cismən bizdən ayrılsa da, sözü-söhbəti, nəsihətləri, unudulmaz xatirələri, zəngin mənəvi irsi ilə könüllərdədi.

Hacı Seyid Mir Taha ağa uzaqlardan gəlmişdi, uzaqlara da çıxıb getdi. Onun yolu əbədiyyət, kəhkəşan yolu idi.

Günəş axşamlar qürub etsə də, səhərlər yenidən doğur, dünyanı işığa, nura qərq edir.

Ağanın yetişdirdiyi gənclik də öz ustadlarının etdiyi yaxşılıqları, yəqin ki, unutmayacaq.

Mir Taha ağa böyük məktəb idi. Bu məktəbi keçənlərin, bu bulaqdan su içənlərin yaddaşında heç vaxt ucalardan enməyən Mir Taha ağa abidəsi var.

Qəbrin nurla dolsun, ustad!

***Zülfüqar ŞAHSEVƏNLİ***

# Şəhər taksi sürücüləri işləyən kondisionerə görə müştərilərdən 50 qəpik, hətta 1 manat tələb edir

**Havaların isti keçdiyi dönəmdə taksi xidmətindən istifadə edən müştərilərin sayı artır. Sərnişinlər daha çox kondisionerli taksilərdən istifadə etməyə üstünlük verirlər. Ancaq, bəzi hallarda, taksi sürücüləri daha çox qazanc əldə etmək üçün kondisioner qoşmaq üçün müştəridən əlavə pul tələb edirlər.**

*"Bu gün bəzi taksi şirkətləri sürücüləri istismar edir və bu, sürücü-sərnişin münasibətlərinin pozulmasına səbəb olur"*

***İlqar Hüseynli:** "Taksi sürücülərinin kondisioner işlətdiyi üçün müştəridən əlavə ödəniş tələb etməsi düzgün deyil"*

Taksi sürücüləri kondisioner işlətdiyi üçün müştəridən əlavə olaraq 50 qəpik və ya 1 manat pul ödəməsini tələb edirlər. Bu hal son günlər tez-tez müşahidə olunur. Taksidən istifadə edənlər kondisioner üçün əlavə pul ödəməsindən narazıdırlar.

Məsələ ilə bağlı fikir bildirən sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, taksi sürücülərinin kondisioner işlətdiyi üçün müştəridən əlavə ödəniş tələb etməsi düzgün deyil: "Bəzi sürücülərin bu tələbi taksi xidməti sahəsində çox biabırçı mənzərə yaradır. Məlum tendensiyanın qarşısını almaq üçün taksi sahəsində müəyyən nizam-intizama ehtiyac var. Belə ki, vahid qiymət sisteminin tətbiqi zəruridir. Bu sistemdə tariflər həm sərnişinlər, həm də sürücülər üçün səmərəli olmalıdır".

Ekspertin sözlərinə görə, bu gün bəzi taksi şirkətləri sürücüləri istismar edir və bu, sürücü-sərnişin münasibətlərinin pozulmasına səbəb olur: "Əksər taksi şirkətləri qiymətləri aşağı salmaqla, başqa şirkətlərlə rəqabətə girməyə çalışırlar. Yəni məlum şirkətləri sıradan çıxarmaq üçün oyun qururlar. Ortada əziyyət çəkənlər isə sərnişinlər və sürücülər olur. Bəzən sürücü fərdi xidmətdə




müştəri qıtlığı yaşandığına görə taksi şirkətləri ilə işləməyə məcbur olur.

Bu məcburiyyət sürücünün xeyrindən çox, ziyanına yol açır. Bu baxımdan vahid qiymət sistemi tətbiq olunmalı və ciddi dəyişikliklər edilməlidir".

**Həmsöhbətimiz təklif edir ki, hansısa taksi şirkətinin sürücüsü kondisioner işlətdiyi üçün müştəridən əlavə pul tələb edərsə, o zaman həmin şəxs aidiyyəti qurumlara şikayət etsin.**

***Günel CƏLİLOVA***

# Binə və Sovxoz adlı böyük yaşayış massivlərinin minlərlə sakini susuzluqdan məhv edilir...

**Xəzər rayonu, Binə qəsəbəsinin sakinləri illərdir susuzluqdan əziyyət çəkirlər. Məsələ ondadır ki, son illər qəsəbə əhalisinin sayı xeyli artıb. Binə qəsəbəsində torpaq paytaxtın digər əraziləri ilə müqayisədə nisbətən ucuz olduğuna görə son illər ərzində qəsəbədə çoxsaylı ev tikilib və yeni yaşayış massivləri yaranıb.**

***Mehdi Məmmədov:** "Problem ondadır ki, suyun 1 tonunu 6 manata alırıq"*

***Anar Cəbrayıllı:** "Digər yaşayış massivlərinə də mərhələ-mərhələ su çəkiləcək"*

Ancaq evlər plansız tikildiyi üçün, sakinlər su təminatı ilə bağlı ciddi problemlə üzləşiblər.

Sakinlərin dediyinə görə, Binə qəsəbəsinin bir sıra ərazilərinə su xətti çəkilmədiyindən, sakinlər suyu su maşınlarından alırlar. Əvvəl su təminatı ilə bağlı vəziyyət, ümumiyyətlə, çox çətin idi. Şikayətlərdən sonra Binə qəsəbəsinin Sovxoz adlanan yaşayış massivinin müəyyən hissəsinə su xəttinin çəkilməsinə başlanıb. Ancaq Binə qəsəbəsində xeyli sayda sakinin məskunlaşdığı ərazilərdə su yoxdur. Əhali suya olan tələbatını iki cür ödəyir. Bunlardan biri ondan ibarətdir ki, qəsəbədə sakinlər həyətlərdə quyular qazıblar. Demək olar ki, əksər evin həyətində su quyusu qazılıb. Ancaq bu quyulardan çıxan su duzlu olduğundan ondan ancaq məişət məqsədilə istifadə edilir. Daha dəqiq desək, naəlac qalan sakinlər quyu suları ilə paltar yuyur, ağacları sulayırlar. Su duzlu olduğundan bir sıra hallarda ağaclar quruyur. Sakinlər deyirlər ki, quyu suları ilə çimmək belə mümkün deyil. Su duzlu olduğundan çiməndən sonra bədəndə qaşınma yaranır. İçməli suya olan tələbat isə su maşınları vasitəsilə təmin edilir. Yəni pul verib su alırlar. Bu da çox vaxt baha başa gəlməklə yanaşı, suyun keyfiyyətinə də mənfi təsir edir. Yayda vəziyyət daha çətin olur.

Binə qəsəbəsinin yeni parniklər adlanan ərazisində çoxsaylı ev tikilib. Bu yaşayış massivinin sakini Mehdi Məmmədovun sözlərinə görə, su ilə bağlı çox ciddi çətinlik çəkirlər: "Yayda bunun nə demək olduğunu hər halda geniş izah etməyə ehtiyac yoxdur. Ona görə ki, hər dəqiqə suya ehtiyac yaranır. Qalırıq belə və bilmirik nə edək. Problem ondadır ki, suyun 1 tonunu 6 manata alırıq. Bir ton su heç beş gün getmir. Beş nəfərlik ailə üçün bu çox bahadır.



Elə gün olur ki, istiyə görə 2 dəfə yuyunmalı olursan. Buna su çatdırmaq olar? Su xətti çəkilsə, biz də digər sakinlər kimi kubuna 35 qəpik ödəyib normal yaşayarıq. Dəfələrlə bununla bağlı bələdiyyələrə, digər müvafiq qurumlara müraciət etmişik, amma bir səs-soraq yoxdur. Burada minlərlə insan yaşayır və əksəriyyəti də son illər rayondan köçən insanlardır. Çoxu da iş tapmaqdan ötrü bura üz tutub. Onu da nəzərə almaq lazımdır ki, yaşadığımız yaşayış massivi şəhərə uzaqdır. "Koroğlu" metrostansiyasına getməkdən ötrü iki marşrut dəyişirik. Qazancımızın çoxu yollara çıxır. Bilmirik bunun fikrini çəkək, yoxsa su tapmağın fikrini?! Çox xahiş edirəm, bizə kömək edin, bu problem öz həllini tapsın".

Sözügedən məsələ ilə əlaqədar "Azərsu" ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Anar Cəbrayıllı ilə əlaqə saxladıq. Onun sözlərinə görə, Binə qəsəbəsinin təxminən 25 faizinə su çəkilib: "Digər yaşayış massivlərinə də mərhələ-mərhələ su çəkiləcək. Bizim Binə qəsəbəsinin su təchizatının yaxşılaşdırılması ilə bağlı layihələrimiz var. Vəsait ayrıldıqca, su xətləri çəkiləcək. Binə qəsəbəsinin müəyyən ərazilərinə ötən il də, bu il də su çəkmişik. Gələn il də bu iş davam etdiriləcək. Yəni mərhələli şəkildə bu işlər icra olunacaq. Hazırda Binə qəsəbəsinin dəmir yolu ərazisində su çəkilir. Ona görə də sakinlər narahat olmasınlar, mərhələ-mərhələ onların da problemi öz həllini tapacaq".

***Vidadi ORDAHALLI***

27-29 iyul 2019
№ 131 (4029)



BAKI XƏBƏR

# Şah İsmayıl haqda yarımçıq kino - 1 milyon vəsaitin havaya sovrulduğu deyilir

**Müasir dövrdə Azərbaycanda tarixi filmlərin çəkilməsinə elə də böyük əhəmiyyət verilmir. Kinematoqraflar və kino şirkətləri əsasən mücərrəd mövzulu, yaxud da ailə-məişət müstəvisində filmlər çəkməklə işlərini bitmiş hesab edirlər.**

Qarabağ xanı İbrahim xan, Gəncə hökmdarı Cavad xan, Cümhuriyyət tarixinə aid olan film istisna olmaqla, demək olar ki, hələlik heç bir xanlığımız, xanlarımız haqqında tarixi bədii filmlər istehsalata buraxılmayıb. Sovet dövründə isə Sovet ideologiyasının təsir altında yalnız Quba xanı Fətəli xanın mübarizə yolunu əks etdirən film ekranlaşdırılıb.

Zəngin dövlətçilik tarixinə malik olan Azərbaycanın dövlətçilik ənənəsi nədənsə hər zaman arxa plana keçirilir. Baxmayaraq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin kino ilə bağlı imzaladığı sərəncamlarda, sənədlərdə milli dövlətçilik tariximizi yaradan böyük şəxsiyyətlər haqqında azərbaycançılıq ideologiyası əsasında filmlər çəkilməsi məsələsi önə çəkilib. Dövlət tarixi şəxsiyyətlərimizlə bağlı filmlərin çəkilməsində maraqlı olsa da, kinematoqraflarımız bu sahəyə nədənsə elə də maraq göstərmirlər. Çoxları hesab edir ki, bu filmlərin çəkilməsi üçün Azərbaycanda maddi-texniki baza yoxdur və sair. Halbuki, istək olandan sonra maddi-texniki bazanın formalaşdırılması çətin deyil.

İllərdir Azərbaycanın böyük dövlət xadimi Şah İsmayıl Xətai haqqında bədii filmin çəkilməsi gündəmdədir. Hətta illər əvvəl filmin ssenarisi də yazılıb hazırlanıb. Xeyli müddət əvvəl məlumat yayıldı ki, Mədəniyyət Nazirliyi tərəfindən Şah İsmayıl Xətai haqqında bədii filmin çəkilişlərinə start verilib. Hətta ilkin mərhələdə filmin çəkilişlərinə dövlət büdcəsindən 1 milyon manat da ayrılıb. Son günlər isə filmin çəkilişlərinin məlum olmayan səbəblər üzündən təxirə salındığı və ayrılan 1 milyon manat dövlət vəsaitinin havaya sovrulduğu haqqında məlumatlar yayılıb.

Şah İsmayıl Xətai filminin çəkilişləri hansı səbəbdən təxirə salınıb?

***Şeyx Əbdül Mahmudov:** "Filmin çəkilişlərinin bərpa edilməsi üçün ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya müraciət ediləcək"*



*"Şah İsmayıl Xətai haqqında film həmişə gündəmdədir və film "Azərbaycanfilm" kinostudiyasının planındadır"*

Şah İsmayıl Xətai filminin rejissoru Şeyx Əbdül Mahmudov "Bakı-Xəbər"ə bildirdi ki, filmin çəkilişləri gündəmdədir. Bu filmin Şah İsmayıl Xətainin 500, Heydər Əliyevin isə 95 illiyinə həsr ediləcəyini deyən Şeyx Əbdülün sözlərinə görə, vaxtilə bu filmin çəkilişlərinə mane olan qüvvələr olub, bu səbəbdən də filmin istehsalata buraxılması bu qədər ləngiyib. "Şah İsmayıl Xətai haqqında film həmişə gündəmdədir və film "Azərbaycanfilm" kinostudiyasının planındadır. Özü də bu film plana yeni daxil edilməyib, vaxtilə ulu öndərin təşəbbüsü ilə salınıb. Artıq 40 ildir bu filmin çəkilməsi üçün çalışıram, çox təəssüflər olsun ki, o vaxt filmin yaradıcı heyətində təmsil olunan insanların çoxu indi həyatda yoxdur. Şah İsmayıl Xətai haqqında bədii filmin çəkilməsinə qarşı olan müəyyən qüvvələr vardı, onlar bizim işimizə maneçilik törədirdilər. Onlarla böyük mübarizəmdən sonra, 2000-ci ildə ulu öndərin xeyir-duası ilə çəkilişlərə başladıq. Həmin dövrdə rəhmətlik Heydər Əliyevin təşəbbüsü ilə filmin ssenarisi qəbul edildi və filmin çəkilməsinə razılıq verildi. Hətta filmin çəkilişləri üçün 1 milyon pul ayrıldı. Mən filmin çəkilişləri üçün məkanlar seçməyə başladım, aktyor seçimi aparıldı, çəkilişlərə başladıq və birdən filmin çəkilişləri dayandı. O vaxt bizim işimizə mane olan adamların çoxu indi işdən uzaqlaşıblar, ona görə də onların dalınca danışmaq istəmirəm. Dediyim kimi, bu film kinostudiyanın planındadır, dövlət ona pul xərcləyib. Bu böyük kinoepopeyadır, ekran əsəridir. Bu film Xətainin 500, Heydər Əliyevin isə 95 illiyinə həsr olunur. Yəni ssenari belə təsdiq olunub. Müəyyən problemlər vardı, amma o da yavaş-yavaş aradan qaldırılır".

Şeyx Əbdül qeyd etdi ki, film əvvəlcə 3 seriyalı nəzərdə tutulsa da, Heydər Əliyevin təşəbbüsü ilə 4 seriya olması planlaşdırılıb. Ölkədə iqtisadi çətinlik olduğu üçün filmin seriyasının az olmalı olduğunu düşündüyünü deyən Şeyx Əbdül bildirdi ki, Heydər Əliyev Xətai haqqında çəkiləcək filmin dünya səviyyəli bir film olmasını və dövlət büdcəsindən çəkilişlərə lazımi vəsaitin ayrılacağını bildirib. "Heydər Əliyev dedi ki, bu filmin həcmi böyük olmalıdır, mənə dövlətin və dövlətçiliyin tarixinin əks olunması lazımdır. Rəhmətlik bildirdi ki, böyük neft kontraktı imzalamağa hazırlaşırıq və bu filmin smetası yüksək olmalı, beynəlxalq səviyyəli bir film kimi ərsəyə gəlməlidir, çünki bu bizim həm anadilli dövlətçilik, həm də mənəviyyat tariximizdir. Bilirsiniz ki, Şah İsmayıl Xətainin ata və ana tərəfi dövlətçilik tariximizlə sıx bağlıdır. Ona görə də Heydər Əliyev dedi ki, gedin smeta tutun, hələlik əlinizdə olan vəsaitlə işə başlayın, mən yenə də pul ayıracağam. O bu filmin olduqca səviyyəli olmalı olduğunu və neft kontraktından gələn ilk puldan filmə ayrılacağını deyirdi. Film 4 seriyalı çəkilməli idi, lakin Heydər Əliyev dünyasını dəyişdikdən sonra filmə qarşı yenidən təxribatlar başladı. Keçmiş mədəniyyət naziri də, kinostudiyanın direktoru da, filmin ssenari müəllifi və quruluşçu rejissoru olan mən də, heyət üzvləri də filmin çəkilişlərinin hansı səbəbdən təxirə salındığını bilmədilər. Dedilər ki, guya vəsait yoxdur. Halbuki, rəhmətlik Heydər Əliyev filmə ayrılacaq vəsaiti plana saldırmışdı. Bu onların bəhanəsi idi. Məni yandıran odur ki, bəziləri vəzifələrindən sui-istifadə edərək mənasız şeylərə pul xərcləyirlər. Ancaq dövlətçilik tariximizlə bağlı filmlərə belə biganə qalırlar. Tariximizlə bağlı film çəkilmədi, pul da xərcləndi və ortada da bir şey yoxdur. Bilmirəm, kimlər idi onlar və nə məqsəd güdürdülər ki, bütün dünyanın rəsmi etiraf etdiyi, təsdiqlədiyi möhtəşəm tarixi şəxsiyyətin yaratdığı, 2 milyon 800 min kvadratmetr ərazisi olan, 230 il ömrü olan bir möhtəşəm dövlətlə bağlı filmin çəkilişlərinə qarşı təxribat törətdilər".

Şeyx Əbdül qeyd etdi ki, hazırda filmin çəkilişləri gündəmdədir və 2 avqust Milli Kino Günündən sonra filmin çəkilişlərinin bərpa edilməsi üçün ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya müraciət ediləcək. "Kino bayramından sonra bu məsələyə qayıdılacaq. Filmin ssenarisi Kinematoqrafiya İttifaqının sədri, Xalq artisti Şəfiqə Məmmədovanın stolunun üstündədir. Ssenarinin təsdiq olunmuş 2 seriyası hazırdır və Kino Günündən sonra məsələ müzakirə ediləcək və filmin çəkilişlərinin yenidən bərpa edilməsi üçün Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya müraciət ediləcək. Kimin nə danışmasından asılı olmayaraq, Şah İsmayıl Xətai filmi kinostudiyanın planındadır və dövlət rəhbərinin nəzərindədir. Bura pul xərclənib və onun çəkilşləri bərpa edilməlidir.

O gün kinostudiyanın direktoru Müşfiq Hətəmovla da danışdım. O da dedi ki, bayramdan sonra filmin çəkilişlərini bərpa edəcəyik. Hamını xəbərdar edirəm ki, bu filmi çəkmək özfəaliyyət işi deyil, bu mənim 40 illik zəhmətimin bəhrəsidir.

Təkcə mənim yox. Bu vaxt ərzində Fərman Kərimzadə, Əhmədağa Muğanlı, Oqtay Əfəndiyev, Mahmud İsmayılov, Ziya Bünyadov, Rasim İsmayılov, Nadir Zeynalov dünyasını dəyişib. Seçdiyim aktyorların hamısı qocalıb, film üçün yeni aktyorlar seçməliyəm. Heç kəs cəsarət edib bu mövzuya yaxın düşə bilməz, bu mümkünsüzdür. Əvvəla qanun, haqq-ədalət, sonra isə əxlaq var, nəhayət də dövlət buna pul xərcləyib. Allaha şükür dövlət də var, dövlətin sahibi də var, milli-mənəvi dəyərlərimizə sahib duran da var".

Şeyx Əbdül qeyd etdi ki, filmin çəkilişlərinin reallaşması üçün ziyalıların da dəstəyinə ehtiyac var. O, həmçinin, bildirdi ki, Şah İsmayıl Xətai filminin ssenarisini kütləvi informasiya vasitələrində müzakirəyə verməyi də düşünür.

***İradə SARIYEVA***

**Azərbaycanda dövlət qurumları tərəfindən keçirilən tenderlərin böyük əksəriyyəti ilə bağlı narazılıqlar meydana çıxır. İctimaiyyətin diqqətini cəlb edən belə tenderlərdən biri də bu yaxınlarda baş tutub. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinə (AQTA) tabe olan Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun Qurban bayramı ilə əlaqədar heyvan kəsimi üçün müvəqqəti çadır və avadanlıqlar aldığı barədə məlumat verilib.**

# 30 "Qurban çadırına" 800 min manatdan çox vəsait necə xərclənə bilər...




Sözügedən qurumun bu məqsədlə 13 iyun 2019-cu il tarixində keçirilmiş tenderində "Novotrend" MMC qalib elan edilib və nəticədə sözügedən şirkətə 802 min manat ödəniş edilib.

Həmin vaxt çadırların sayı barədə bir şey deyilmirdi. Ötən gün isə AQTA-nın yaydığı məlumatdan belə nəticə çıxarmaq olar ki, sözügedən çadırlar 30 yerdə quraşdırılacaq. Belə çıxır ki, 30 ədəd müvəqqəti çadıra və onun avadanlıqlarına 800 min manatdan artıq pul xərclənəcək. Belə çıxır ki, hər çadır təxminən 30 min manata başa gəlib. Çatdırlarda su kranalrının quraşdırılacağını da nəzərə alsaq, yenə də həmin məbləğ fantastik görünür. Onda gərək həmin kranlar bahalı metaldan hazırlanmış olsun. Dövlət qurumunun çadır tenderində şübhəli məqamların olması ilə bağlı ekspertlər nə düşünürlər?

## *İlqar Hüseynli: "Hərənin öz funksiyası var və ona uyğun işlə məşğul olsa yaxşıdır"*

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli qəzetimizə açıqlamasında bildirdi ki, burada şübhəli məqamlar çoxdur: "Çadır nə materialdan hazırlanır ki, ona 30 min manat pul xərclənsin? Siz jurnalistsiniz, buyurun, araşdırın. Qaçqın və məcburi köçkünlər üçün tikilən binalardakı 3 otaqlı mənzilin smetası 30-32 min manat arasında dəyişir. Yəni bu minvalla 30 qaçqın ailəsinin hər birinə 3 otaqlı mənzil tikmək olardı. Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, niyə Qida Təhlükəsizliyi Agentliyi belə işlə məşğul olur? Axı bu fəaliyyət onun mandatına uyğun deyil. Bu, bir sosial xidmətdirsə, yaxşı olardı ki, bununla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məşğul olsun. Hətta onlar məşğul olsa belə, dövlət büdcəsini bu şəkildə israf etmək olmaz.

*"Dövlətin bu qədər vəsaitini bu tip səmərəsiz xərcləmələrə yönəltməyin özü yolverilməzdir"*

QTA isə kəsiləcək heyvanların sağlamlığına nəzarət etməlidir. Hərənin öz funksiyası var və ona uyğun işlə məşğul olsa yaxşıdır. Dövlətin bu qədər vəsaitini bu tip səmərəsiz xərcləmələrə yönəltməyin özü yolverilməzdir.

Bilirsiniz ki, belə humanitar sosial aksiyalar dünyanın bütün inkişaf etmiş ölkələrində keçirilir. Məsələn, Türkiyədə bunu özəl şirkətlər, iş adamları edir. Sizi inandırım ki, çağırış olsa, burada da edənlər tapılar. Dövlətin külli miqdarda vəsaitini havaya üfürmək lazım deyil. Belə israfçılıq hallarının qarşısı mütləq alınmalıdır. İctimai nəzarət mütləq olmalıdır. Jurnalistlər fəal olsa, bu cür israfların qarşısı hər halda alınar. O cümlədən, dövlətin büdcəsinə, onun necə xərclənməsinə nəzarət edən qurumlar yaxşı olardı ki, bu cür halları diqqətlə araşdırsınlar".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Azərbaycanın Bütövlüyü Uğrunda İctimai Birlik "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının gənclər arasında təbliği" layihəsi çərçivəsində növbəti tədbirini keçirib. "Ordunun təbliğinin vətənpərvərlik hisslərinin artırıllmasına müsbət təsiri" mövzusuna həsr olunmuş tədbiri giriş sözü ilə açan Xalidə Qafarova Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilən layihənin məqsəd və vəzifələri barədə məlumat verib.**

# Azərbaycanın Bütövlüyü Uğrunda İctimai Birlik ordu təbliğatının vətənpərvərlik hisslərinə müsbət təsirini müzakirə etdi




Tədbirdə çıxış edən ekspert Alim Hüseynli deyib ki, ordunun təbliği vətənpərvərlik hissinin artırılmasında əvəzsiz vasitədir. Çıxışı zamanı Azərbaycanda həyata keçirilən ordu quruculuğu və Azərbaycan Ordusunun bugünkü durumuna diqqət çəkən Alim Hüseynli deyib ki, dünyanın ən güclü orduları sırasında özünə yer alan Azərbaycan ordusu qürur mənbəyimizdir.

Alim Hüseynli qeyd edib ki, Heydər Əliyevin ordu quruculuğu ilə bağlı başlatdığı işlər onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan ardıcıl və sistemli islahatlar həyata keçirən dövlət başçısı ordu quruculuğuna da xüsusi diqqətlə yanaşır. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətləri kimi diqqəti çəkir. Prezidentimizin ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycan möhkəm nizam-intizamı, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordusu ilə fəxr edir. Prezident, Ali Baş Komandan İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərləri ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən amillər sırasındadır. Ön xətdə xidmət edən şəxsi heyətə mübarizə əzmi aşılamaqla Ali Baş Komandan bir daha orduya diqqət və qayğısını əsirgəmədiyini nümayiş etdirir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, erməni işğalının və müharibə vəziyyətinin davam etdiyini nəzərə alaraq bizim qarşımızda duran əsas vəzifə hərbi kadrların peşəkarlıq səviyyəsini artırmaq, müdafiə potensialını möhkəmləndirmək, ordumuzun gücünü və hərbi qüdrətini daima yüksəltməkdir. Bu isə Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsi üçün başlıca şərtdir".

Sonra çıxış edən ekspert Süleyman İsmayılbəyli layihə çərçivəsində görülən işlər, keçirilən tədbirlər və görüşlər barədə iştirakçıları məlumatlandırıb. Mövzu ətrafında çıxış edən Süleyman İsmayılbəyli Azərbaycan Ordusunun hazırkı durumu və gənclərin Silahlı Qüvvələrdə iştirakına olan marağına xüsusi diqqət çəkib. Bildirib ki, əvvəlki illərdə müqayisədə xüsusilə müstəqilliyin ilk illərindən fərqli olaraq indi gənclər ordu sıralarında qulluq etməyə üstünlük verir, fərarilik hallarına yol vermirlər: "Ancaq birinci Qarabağ savaşı zamanı biz bunun əksini müşahidə edirdik. Cəbhədə bir-birinin ardınca üzləşdiyimiz uğursuzluqlar, torpaqlarımızın işğala məruz qalması, minlərlə şəhid verməyimiz gənclərin gözündə bir qorxu hissi yaratmışdı. Hər bir valideyn imkan daxilində övladını ordu sıralarında qulluq keçməkdən yayındırmağa, onu ölkə xaricinə göndərməyə çalışırdı. Lakin zaman keçdikcə bu istiqamətdə müsbət tendensiyanın müşahidə edilməsi, nizami Azərbaycan Ordusunun formalaşması gənclərin ordu sıralarında xidmət keçməsinə olan marağını artırdı. Tədricən fərarilik halları aradan qalxdı". Süleyman İsmayılbəyli qeyd edib ki, bu gün qeyd edilən mənfi tendensiya ümumiyyətlə Azərbaycan Ordusunda yoxdur: "Ancaq Ermənistanda bu sahədə vəziyyət demək olar ki, acınacaqlıdır. Bu ölkənin kütləvi informasiya vasitələrinin yaydığı məlumatlarda qeyd edilir ki, paytaxt Yerevanda fərarilik halları 20-30 faiz, əyalətlərdə isə hətta 40-50 faiz arasındadır. Erməni valideynlər imkan düşdükcə öz övladlarını ölkədən qaçırırlar. Xüsusilə 2016-cı ilin Aprel döyüşləri, eləcə də Günnüt zəfərindən sonra düşmən ölkədə bu tendensiya sürətli xarakter alıb". Ekspert deyib ki, gənclər tərəfindən Azərbaycan Ordusuna olan inamın artmasını şərtləndirən bir sıra amillər var ki, bunlar sırasında ilk növbədə orduya olan diqqət və qayğıdır: "Bu gün Ali Baş Komandan tərəfindən hər bir əsgər və zabitə yüksək səviyyədə diqqət, qayğı göstərilir.

Hərbiçilərin sosial-mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə kompleks işlər görülür. Həmçinin onlara müntəzəm olaraq hərbi rütbələr verilir. Bütün bunlar gənclərin ordu sıralarında xidmət etməsinə, orduya marağının artmasına müsbət təsir göstərən amillərdir". Ekspert deyib ki, Müdafiə Nazirliyinin müddətli hərbi xidmət keçmək üçün verdiyi elanlara edilən müraciətlərin sayında ildən-ilə qeydə alınan artım da belə deməyə əsas verir.

Çıxışlardan sonra mövzu ətrafında müzakirələr olub, suallar cavablandırılıb.

***Süleyman İSMAYILBƏYLİ***

**Bütün qəhrəmanlar bir-birinə bənzəyir, elə analarının qübarlı ürəyi də, atalarının bükülmüş qaməti də oxşar olur nədənsə. Şəhid ata-anası nə qədər yaralı, nə qədər dərdli olsalar da, bir o qədər də vüqarlıdırlar. Ürəklərinə çəkilən oğul dağı başı ucalara dayanan vüqarlı bir dağa çevrilir, o dağın yamaclarını isə şəhid oğulun qanından közərən qəmli lalələr süsləyir.**



*”Qardaşımı hər şeydən əvvəl torpaqlarımızın düşməndən azad edilməsi, ərazi bütövlüyümüzün qorunması maraqlandırırdı”*

# Tovuzun qəhrəman oğlu - şəhid Zaur Axundov...

## ***Ümid Axundov:*** *”Zaurun Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olması ilə fəxr edirik”*

Bu bir həqiqətdir ki, şəhidlər ölmür, onlar bir ovuc Vətən torpağına çevrilirlər. Hər şəhid bir ovuc Vətən torpağıdır. Harada şəhid uyuyursa, o torpaq müqəddəsdir. Şəhid Zaur Axundovun uyuduğu Tovuz məzarlığı da müqəddəs and yeridir. Zaur ata-anasının gözünün ilki idi. Valideynlərinin heç ağlına da gəlməzdi bağlarının nübarı Zaur şəhid olacaq, bir ovuc Vətən torpağına çevriləcək. Şəhidlik köynəyi qəhrəman Zaurun sanki əyninə biçilmişdi. Zaur kimi oğullar şəhidlik köynəyini əyninə ona görə geyinir ki, irz-namusumuz olan Vətənimiz yaşasın. Zaur Valeh oğlu Axundov 25 ildir şəhid olub. 25 ildir Zərifə ananın gözünün yaşı qurumur ki, qurumur. Ana hər yerdə oğlunu axtarır. Oğlunun boyuna bənzər boy görəndə ana balasının şəkillərini oxşayır, şəkillər danışır ana ilə. Şəkillər anaya nələr demir ki... 23 bahar görmüşdü balası. Balasının toyunu görmək istəyirdi ana, amma toyu çalınmamış tabutu gəlmişdi balasının. Bəy otağına girməyən Zaurla bağlı ananın nə qədər arzuları vardı. Amma bədnam qonşularımızın əsassız başladığı müharibə ananın arzularını göyərməyə qoymadı. Hər qəhrəman döyüşə gedərkən arxasında bir cüt gözləyən, ağlayan göz qoyub gedir. Zaur da anasını ağlar qoyub getmişdi və onun anası bu gün də ağlayır.

*Analar anar ağlar,*
*Tellərin sanar ağlar.*
*Dönər göy göyərçinə*
*Yollara qonar ağlar...*

Yollar çoxdur dünyada, ən müqəddəsi, ən əbədisi isə şəhidlik yoludur. Zaur Axundov da bu əbədi və müqəddəs yolun yolçusu oldu. "Vətən uğrunda ölən varsa Vətəndir" - deyən babalarımız yanılmırlar, çünki Vətənimizin Zaur kimi cəngavər, igid müdafiəçiləri minlərlə olub. Bu gün də var.

1994-cü il martın 29-da Tovuzun Koxa Nəbili ərazində Sulutəpə zirvəsində şəhid olan Z.Axundov rayonun Şəhidlər Xiyabanında uyuyur. Şəhid Zaur Valeh oğlu Axundov 1971-ci il iyulun 6-da Tovuz rayonunda anadan olub. Zərifə ananın və Valeh dayının halal ocağında böyüyüb boya-başa çatan Zaur ailənin 4 uşağının böyüyü olub. Zaur uşaqlıqdan vətənpərvərlik ruhunda tərbiyə alıb. Tarixən Tovuz torpağı Azərbaycana çox böyük qəhrəmanlar bəxş edib. Vətənimiz dara düşəndə onun müdafiəsinə ilk qoşulanlar sırasında Tovuz igidləri öndə olub. Sovet İttifaqı Qəhrəmanları, Milli Qəhrəmanlar yetişdirən Tovuzun Zaur kimi oğul yetişdirməsi də təsadüfi deyil.

Deyirlər ki, bütün qəhrəmanlar bir-birinə bənzəyir. Həqiqətən də elədir. Bütün qəhrəmanların, Vətən uğrunda canını fəda edən insanların həyat yolu, taleyi çox oxşar olur. Vətəni canlarından əziz bilənlər gözlərini qırpmadan, "uf" demədən Vətən naminə şəhid olmağı böyük şərəf bilənlərdir.

Ermənilər iki əsrdən artıqdır Cənubi Qafqazın "qara yarası"na çevriliblər. Öz məkrli niyyətlərini həyata keçirmək üçün davamlı planlar cızan ermənilərin ən böyük istəyi Azərbaycan torpaqlarını ələ keçirmək və "Dənizdən-dənizə Ermənistan yaratmaq" xülyasını gerçəkləşdirmək olub. Torpaqlarımıza müxtəlif istiqamətlərdən hücumlar edən Ermənistan silahlı qüvvələri və onların muzdlu döyüşçüləri Dağlıq Qarabağı və ətraf rayonları işğal etməklə kifayətlənməyərək Azərbaycanın indiki Ermənistanla sərhəd olan digər rayonlarına da davamlı hücumlar təşkil ediblər. Bu baxımdan Tovuz da ermənilərin hədəfinə tuş gəldi və Ermənistan silahlı qüvvələrinin hədəfi Tovuzu ələ keçirmək, bu rayonun ərazilərini işğal etmək idi. Lakin Tovuzun qəhrəman oğullarının düşmənə göstərdiyi davamlı müqavimət nəticəsində Tovuz ermənilərə bir qarış da torpaq vermədi. Əlbəttə, bu da Zaur Axundov kimi qəhrəmanların Tovuzun düşməndən müdafiə olunmasında göstərdikləri qəhrəmanlığın, şücaətin hesabına idi.

Z.Axundov Vətənə sadəqətlə xidmət edən və onun borcundan ləyaqətlə çıxan Vətən oğludur. Ömrünün bahar çağında qanını Vətən torpağına axıdan Z.Axundov heç zaman qocalmayacaq, hər zaman şəkillərdən gənc bir oğlan boylanacaq.

Z.Axundovun qardaşı, şəhidin adını daşıyan taekvondo klubunun rəhbəri Ümid Axundov şəhid haqqında danışarkən qardaşının Vətənə, torpağa həddindən artıq bağlı olduğunu və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını fəda etməkdən çəkinmədiyini bildirdi. "23 yaşında şəhid olan qardaşım Zaur ailəmizin böyük övladı olub. Hələ evlənməmişdi, subay idi, nişanlanmamışdı da. Bütün qəhrəmanlar kimi, Zaurun əsas məqsədi, arzusu Vətənimizin ərazi bütövlüyü ilə bağlı idi. O, tezliklə torpaqlarımızın bədnam ermənilərin təcavüzündən xilas olması uğrunda çarpışırdı. Düşmən məkrli və hiyləgər olsa da, Zaurun və onun döyüş yoldaşlarının ayıq-sayıqlığı, şücaəti sayəsində ermənilərin bütün planları alt-üst olurdu. Zaurun döyüş yolu Tovuzun Koxa Nəbili deyilən ərazisindən keçib. Bu ərazi Ermənistan sərhədinin yaxınlığında yerləşdiyi üçün, bədnam qonşularımız bura aramsız hücumlar edir, Koxa Nəbili yüksəkliyini ələ keçirmək istəyirdilər. Əgər Zaurun şəhid olduğu Sulutəpə yüksəkliyi düşmən əlinə keçsəydi, Tovuzu müdafiə etmək çətin olacaqdı. Çünki ermənilər o yüksəkliyi işğal etsəydilər, Tovuz tamamilə ovuclarının içində olardı. 1994-cü ilin martında ermənilər davamlı şəkildə Tovuzu müxtəlif çaplı silahlardan atəşə tutur, rayona qrad yağdırırdılar. Mən özüm o günlərin şahidi olmuşam. İki gün davam edən döyüşlər zamanı ermənilər az qala həmin yüksəkliyi ələ keçirsinlər. Hətta o yüksəkliyin bir qismini ələ keçirmişdilər. Lakin qardaşım da daxil olmaqla, bütün əsgərlər çox çətinliklə də olsa həmin yüksəkliyin düşmən nəzarətinə keçən hissəsini geri almağa müvəffəq olublar. Onlar çox böyük çətinliklər hesabına erməniləri geri çəkilməyə məcbur etmişdilər. Lakin düşmən məkrli olduğu üçün tez-tez həmin istiqaməti tank atəşinə tuturdu. Erməni tankının atdığı sonuncu mərmi qardaşım da daxil olmaqla 11 nəfər Vətən oğlunun şəhid olmasına səbəb olub.

Həmin ərazidə qızğın döyüşlər martın 26-sı başlamışdı və qardaşımın şəhid olmağı ilə bağlı xəbəri bizə martın 29-da verdilər. Qardaşımın və digər şəhid olanların cəsədini Tovuzda morqa qoymuşdular və bizə də cəsədi gətirdikdən bir neçə saat sonra məlumat vermişdilər".

Ü.Axundov deyir ki, qardaşı şəhid olmamışdan bir neçə gün əvvəl evə gəlibmiş. Sanki Zaur əbədi köç edəcəyini əvvəlcədən bilirmiş və əzizləri ilə halallaşmaq üçün son dəfə ata ocağına baş çəkirmiş. Əslində, özünü Vətən yolunda qurban verən hər bir şəhidimiz şəhid olacağını əvvəlcə hiss edir və buna özünü ruhən, daxilən hazırlayır. Zaur da istisna deyil. "Şəhid olmamışdan iki gün əvvəl evə gəlmişdi, gecəni mənimlə bir otaqda yatdı. Həmin gecə çox güclü atışma vardı və güllə səsləri bizim evdən də aydınca eşidilirdi. Zaur ağır yatmışdı. Anam atışma olduğu üçün Zauru durğuzdurmaq istəmirdik. Bilirdik ki, atışmanı eşidib döyüşməyə gedəcək. Anam qardaşımın getməyini heç istəmirdi. Sonra özü atəş səsinə ayıldı və narazılıq etdi ki, atışma var, məni niyə durğuzdurmamısınız, mən mütləq orada olmalıyam, mənim yerim bura yox, səngərdir. Tələsik əynini geyinib evdən çıxdı. Polad adlı cəbhə yoldaşı vardı, o da onu "Axundov, Axundov" deyə çağırırdı. İndiyə qədər o səs yadımdadır. Həmin gün anam evdə qatlama bişirmişdi. Zaur evdən çıxanda iki qatlama götürərək "biri mənim, biri də Poladın" dedi. O gedən getdi... Sonra da şəhid olmağı ilə bağlı xəbər yayıldı. Əlbəttə, Zaurun Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olması ilə fəxr edirik. Doğrudur, qardaşımın gənc yaşda şəhid olması bizi yandırır, ancaq təsəllimiz odur ki, o, Vətən naminə canından keçib".

Z. Axundovun Sovet ordusunda xidmət etdiyini deyən Ü.Axundovun sözlərinə görə, qardaşı Krasnoyarsk vilayətinin Abakan şəhərində əsgəri xidmətdə olub və nümunəvi əsgər olub və onun yüksək xidmətinə görə dəfələrlə valideynlərinə təşəkkür məktubları gəlib. "Qardaşım əsgərlikdə serjant olmuşdu, rabitəçi kimi xidmət etmişdi. Zaur nümunəvi əsgər kimi xidmət etdiyi hərbi hissədə həmişə nümunəvi əsgər kimi tanınıb və onunla bağlı valideynlərimə təşəkkürnamə göndərilib. Zaur Tovuzda Nəsrəddin Tusi adına orta məktəbdə oxumuşdu və rus dilini bilirdi. Ona görə də əsgərlikdə dil baxımından heç bir əziyyət çəkmirdi. Orta məktəbi rus dilində oxumuşdu. Qardaşım əsgərlikdən evə 7-8 ay gec gəldi. Bu da erməni hiyləsi ilə bağlıdır. Əsgəri xidmətdən qayıtmasına 1 ay qalmış şəhərə gəzməyə çıxır və burada onu erməni millətindən olan komandiri görmüşdü. Komandir boksçu olduğu üçün Zaurun sifətinə zərbələr endirmişdi və bunun nəticəsində qulağı, burnu zədələnmişdi. Rəhmətlik özü danışırdı ki, komandiri olduğu onun zərbələrinə cavab verməyib. Komandir qorxusundan qardaşımı evə tez buraxır, o da üz-gözü zədəli vəziyyətdə Azərbaycana qayıtmır. Zaur birbaşa həmin şəhərdə yaşayan Tovuzun Alakol kəndindən olan həmyerlilərimizin yanına gedir və onlar onu xəstəxanaya aparır, burnuna, qulağına tikiş qoydururlar, müalicə etdirirlər. O tamamilə sağaldıqdan sonra evə qayıtdı".

Zaur əsgərlikdən evə qayıtdıqdan sonra bədnam qonşularımızın ərazilərimizi zəbt etməsinə dayana bilmədiyini və döyüşə getmək haqqında düşündüyünü deyən Ü.Axundovun sözlərinə görə, onun bu arzusunu rayon hərbi komissarlığından gələn çağırış reallaşdırıb. Ata-anasının etirazına baxmayaraq, Zaur döyüşə yollanır. "Səhv etmirəmsə, Zaur döyüşə gedəndə 1993-cü ilin yayı idi. Ata-anam onun döyüşə getməyini istəmirdilər, nə qədər çalışsalar da, onu fikrindən döndərə bilmədilər. O, döyüşə getməkdə israrlı idi. Bilirsiniz ki, həmin dövrdə torpaqlarımızın düşməndən azad edilməsi uğrunda döyüşən, Vətənimizi müdafiə edən oğulların 99 faizi öz ürəyinin səsinə qulaq asaraq cəbhəyə gedib. Bu oğlanların hamısı mərd olublar. Zaur da o mərd oğullardan biri olub. Qardaşımı hər şeydən əvvəl torpaqlarımızın düşməndən azad edilməsi, ərazi bütövlüyümüzün qorunması maraqlandırırdı. Zaur kimi oğulların şücaəti, mərdliyi, cəsarəti hesabına Tovuz düşmənə torpaq vermədi. Qardaşım 25 ildir şəhid olub və onun xatirəsi hər zaman tovuzlular tərəfindən əziz tutulur".

Z.Axundovun adının əbədiləşdirilməsinə gəlincə, Ü.Axundov bildirdi ki, şəhidin adını daşıyan bir taekvondo klubu fəaliyyət göstərir, şəhidin adı Tovuz rayonu Aşağı Öysüzlü kənd mədəniyyət evinə verilib və rayonda şəhid Zaur Axundov adına küçə var.

Z.Axundov 25 ildir cismani olaraq doğmalarının yanında deyil, ancaq ondan yadigar qalan qəhrəmanlıq, cəsarət və şücaət onu əbədi olaraq yaşadır. Əmisinin adını daşıyan balaca Zaur Axundov da ailə üçün bir təsəllidir. Şəhid Zaur Axundovun yarımçıq qalan arzularını balaca taekvondoçu Zaurun gerçəkləşdirəcəyi şübhə doğurmur.

Şəhid Z.Axundov canını Vətənə qurban verməklə əbədiyaşarlıq qazandı. O, ana torpağa qovuşan cismi, göylərdə dolaşan narahat ruhu ilə də Vətəni qoruyur... Onun ruhunu yalnız və yalnız qələbə müjdəsi sevindirə bilər.

***İradə SARIYEVA***

№ 131 (4029) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

27-29 İYUL 2019-cu il




## "Nar" eşitmə məhdudiyyətli insanların işlə təmin olunmasına dəstək oldu

**İnsanların həyat keyfiyyətinin yüksəldilməsinə yönəlmiş layihələrə hər zaman xüsusi diqqətlə yanaşan"Nar"ın eşitmə məhdudiyyətli insanlar üçün təşkil etdiyi "Təlim Məktəbi" layihəsi başa çatıb.**

Üç ay boyu davam edən layihədə, ümumilikdə, 45 nəfər 3 fərqli peşə üzrə intensiv kurslarda iştirak edərək aşpaz, şirniyyat ustası və motorçu peşələri üzrə biliklərə yiyələniblər. Bu layihə, eyni zamanda, eşitmə məhdudiyyətli insanların işlə təmin olunmasına da yardım edib. Belə ki, layihənin yenicə başa çatmasına baxmayaraq, artıq 7 nəfər müxtəlif biznes qurumlarında işə başlayıb.

"Təlim məktəbini başa vuran iştirakçıların hər biri bacarıqlı və cəmiyyət üçün faydalı fərdlərdir. Onların vaxtında və düzgün istiqamətləndirilməsi çox sevindiricidir. Əminəm ki, bu layihədə iştirak edən hər kəs cəmiyyətdə öz yerini tuta biləcək" - deyə layihənin təlimçisi Bəhrəm Hüseynov bildirib.

Qeyd edək ki, "Nar" və "Karlara Dəstək" İctimai Birliyi ilə birgə reallaşdırılan "Təlim məktəbi" layihəsi eşitmə məhdudiyyəti olan insanların peşə sahibi olmaqla cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə keçirilib. Peşə təlimi ilkin olaraq paytaxt Bakıda həyata keçirildi. Gələcəkdə isə bölgələrdə də "Təlim məktəbi" layihəsinin davam etdirilməsi planlaşdırılır.

"Nar" 4 ilə yaxındır ki, eşitmə məhdudiyyətli insanlar üçün bu cür təlimlər təşkil etməklə, onların müxtəlif peşəyə yiyələnməsinə və iş bacarıqlarının artmasına töhfə verir. Fiziki məhdudiyyətli insanlara dəstək və onların cəmiyyətə inteqrasiyası "Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

### Elan

"Siqma" firmasına 02.02.1998-ci il tarixində Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən verilmiş N75 sərəncam itdiyi üçün etibarsız sayılır (Bakı şəhəri, Nizami rayonu, Babək pr. 2222-ci məhəllə).

DTXK tərəfindən Soltanov Elvin Nurəddin oğluna verilmiş kadastr planı itdiyi üçün etibarsız sayılır.

Əliyeva Məleykə Əsəd qızının adına, Bakı şəhəri, Akim Abbasov küçəsi, ev 18 b, mənzil 9 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Paşayev Nofəl Paşa oğlunun adına, Sabunçu rayonu, Bilgəh qəsəbəsi, 20-ci qurultay küçəsi, döngə 9, ev 5 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

## Arxeoloqlar ən qədim yaşayış məskənlərinin xarabalıqlarını tapıblar

**Çinin Tszyansu əyalətinin Usi şəhərində arxeoloqlar ən qədim yaşayış məskənlərinin xarabalıqlarını tapıblar. "AZƏRTAC" bildirir ki, ümumi sahəsi 60 min kvadrat metr olan bu tapıntılar Şan və Çjou sülalələrinin hakimiyyəti dövrünə (e.ə. 1600-256-cı illər) aid edilir.**

Çin arxeoloqları ötən ilin sentyabrından Bodu çayının sahilləri boyu qazıntılar aparıblar və bu yaşayış məskənlərini aşkar ediblər. Hazırda həmin ərazidə 200 tikilinin qalıqları tapılıb.



Onların sırasına tikinti obyektləri, kanallar və quyular daxildir. Qazıntılar zamanı bir çox qədim əşyalar, o cümlədən bərk keramika nümunələri, polimer və qum gildən düzəldilmiş alətlər və qablar da tapılıb. Arxeoloji ekspedisiyanın üzvü Li Yuntszyun bildirib ki, hazırda 100-dən çox keramika məmulatı tapılıb. Onun sözlərinə görə, onların radiokarbon üsulu ilə müayinə edilməsi göstərib ki, bu əşyaların hamısı Şan və və Çjou sülalələrinin hakimiyyəti dövrünə aiddir. Xarabalıqların tapıldığı rayon Meyli adlanır. Çinin Usi şəhərinin Mədəniyyət Abidələri və Arxeoloji Tədqiqatlar İnstitutundan bildiriblər ki, bu tapıntılar həmin ərazidə aşkar edilən ilk qədim yaşayış məskənləridir. Onlar yerli arxeoloqlara əyalətin qədim mədəniyyəti və adət-ənənələrini öyrənməyə imkan verəcək.

## Ağlamaq ürək üçün çox faydalıdır

**Müntəzəm olaraq ağlamaq ürək üçün faydalıdır. Bunu Avstraliya Universitetinin alimləri bildirib. Ağlamaq ürək əzələ yığılmasının tezliyini stabilləşdirir, insanı sakitləşdirir, kədər və stres anında ürəyə düşən ağırlığı azaldır.**

"Medici-na.az" bildirir ki, elmi tədqiqatda 197 qadın iştirak edib. Onlar 17 dəqiqə kədərli və emosional videoya baxıblar. 17 nəfər bu filmə baxarkən ağlayıb, qalanları isə sakit qalıb.



Bundan sonra, iştirakçılar fiziki stresə məruz qalınıb, onlar əllərini buzlu suya salıb, bir müddət saxlayıblar. Bu zaman tədqiqatçılar onların ürək ritmini ölçüb, tənəffüsünü yoxlayıb və ağız suyundan stress hormonu üçün analiz götürüblər. Nəticələrdən məlum olub ki, əvvəl ağlayan qadınlarda tənəffüs və nəbz stabil olub, ürək yığılmasında problem yaşanmayıb. Digər ağlamayan qadınlarda isə fiziki stress daha ağır keçib. Amma stress hormonu kortizolun miqdarı hər iki qrupda eyni olub. Alimlər belə qənaətə gəlib ki, ağlamaq, xüsusən ürəkdən ağlamaq insanın bioloji homeostazını saxlayır. Bunun nəticəsində, daxili stabillik qorunur, ürək yığılmaları və təzyiq normada qalır. Bir şərtlə ki, ağlamaq təbii və içdən olsun, qadın ağlamağından utanmasın. Ağlamaq istədiyiniz zaman ağlayın, bunu saxlamaq və tənbeh olunmaqdan qorxmaq sağlamlığa ziyandır.





**Qoç** - İntellektual fəaliyyət üçün əlverişli gündür. Qarşınıza qoyulan çox çətin və mürəkkəb tapşırıqların öhdəsindən gələcəksiniz. Gərəkli informasiyanı vaxtında xatırlayın, bu məlumatı tətbiq etməyə çalışın.



**Buğa** - Günün ilk yarısında hadisələrin ənənəvi axarını dəyişməyə çalışmayın. Praktik, realist və zəhmətkeş olun. Qarşınıza qoyduğunuz məqsədlərin hamısına çata bilərsiniz. Bir şərtlə ki, qətiyyətli və iradəli olasınız.



**Əkizlər** - Günün ilk yarısında hadisələrin məcrasında ciddi dəyişikliklər olacaq. İşlərin gedişatına nəzarət edin. Kontrol rıcaqlarını əldən verməyin. Maliyyə məsələlərində, hesablamalarda səhvlərə yol verməyin.



**Xərçəng** - Xeyli işiniz yığılıb qalıb, kiminsə üstünə atmaq da mümkün deyil, odur ki, heç istəməsəniz də, təklikdə işləməli olacaqsınız. Vəzifələrinizi mütləq yaxşı yerinə yetirməlisiniz, kimsəyə - nə rəhbərliyə, nə həmkarlara tənqid üçün bəhanə verməyin.



**Şir** - Sizi çox uğurlu gün gözləyir. Bir çox işlərdə bəxtiniz gətirir. Hətta, şübhə ilə yanaşdığınız layihələr də özünü doğruldur. Nədəsə, peşəkarlığınız, təcrübə və biliyiniz yetməsə, narahat olmayın, kimsə mütləq köməyinizə gələcək.



**Qız** - İşlərin mövcud durumundan razılıq hissi yoxdur. Tələsə qapılmayın, ifrat özünütənqidə varmayın. Vəziyyəti soyuqqanlı şəkildə təhlil edəndən sonra hərəkətə keçin. Süstlük etməyin.



**Tərəzi** - Yaşmınızda müsbət dəyişikliklərə can atın. Karyeranızda inkişaf, yaşam yerinin dəyişdirilməsi, daha uyğun arealın seçilməsi üçün əlverişli zamandır. Yeni layihəyə başlayın. Öz maraqlarınızı təmin etməmiş başqalarının yardımına tələsməyin.



**Əqrəb** - Baş verənlərin məğzini anlamağa çalışın. Diqqətli olun. Sizə qarşı hazırlanan planı intuitiv olaraq qabaqlamaq məcburiyyətindəsiniz. Özünüzü sığortalayın. Günün ikinci yarısında sərvaxt davranın.



**Oxatan** - Səbrli, ehtiyatlı, sayıq olun. Yaşamınızdakı yad elementləri diqqətlə müşahidə edin. Mümkün gəlirlərdən və şanslardan mütləq istifadə edin. Maliyyə məsələləri xüsusi diqqət tələb edir.



**Oğlaq** - Günün ilk yarısı xoş emosiyalar, nikbinlik vəd edir. Məqsədə doğru aramla, tələsmədən hərəkət edin. Hansısa vəziyyətlə bağlı koqnitiv dissonansın yaranmasına imkan verməyin.



**Dolça** - Çox uğurlu gündür, iş danışıqları gözəl keçir, etibarlı köməkçi və tərəfdaş tapa bilirsiniz. Vəzifələriniz də çoxalır, amma gördüyünüz işin mükafatı özünü çox gözlətməyəcək. Maraqlı əməkdaşlıq təklifləri ala bilərsiniz.



**Balıqlar** - Bu gün sizin üçün praktiki olaraq mümkünsüz iş olmayacaq. Çünki, müsbət təmayüllərin təsiri böyükdür və ən başlıcası, ulduzlar sizi himayə edir. İşdə ciddi uğurlara nail olaraq rəqibləri arxada qoya bilərsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Ayın səthində uzunluğu 15 km olan sirli obyekt...

**Son dövrlər Ayda müxtəlif sirli obyektlərin, binaların tapılması barədə məlumatlar geniş yayılıb.**

"Oxu.az" xəbər verir ki, bütün bunlar aparıcı kosmik dövlətlərin Yerin təbii peykində koloniya qurmaq üçün hazırlıqlar gördüyü bir vaxtda ortaya çıxıb. Bununla belə, müasir texniki naviqasiya sistemləri, "Google Moon" kimi internet-kartoqrafiya tətbiqləri nəinki alimlərə, həm də həvəskar tədqiqatçılara Ayı tədqiq etməyə imkan verir. Bu yaxınlarda virtual arxeoloqlar Ayın səthində uzunluğu 15 km olan sirli obyekt kəşf ediblər. Bununla belə, Ayın digər fotolarında bu obyekt görünmür. Bu səbəbdən sosial şəbəkə istifadəçiləri iddia edirlər ki, kartoqrafiya xidmətinin əməkdaşları tərəfindən bu binanın fotosu silinib. Virtual arxeoloqlar, eyni zamanda, tanınmış ufoloq Skott Uorinq artıq bu yadplanetli bazadan Ayın koloniyalaşdırılması zamanı necə istifadə etməyin mümkünlüyünü araşdırır. Tayvanlı tədqiqatçının fikrincə, bu bazada maraqlı kəşflərə imza atmaq mümkün olacaq.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.